AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

YÜNGÜL SƏNAYENİN UZUNMÜDDƏTLİ İNKİŞAFININ TƏNZİMLƏNMƏSİ İSTİQAMƏTLƏRİ

İxtisas: 5312.01 – Sahə iqtisadiyyatı

Elm sahəsi: 53 - İqtisad elmləri

İddiaçı: **Xədicə Fizuli qızı Məmmədova**

elmlər doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2025

Dissertasiya işi Azərbaycan Texnologiya Universitetinin "İdarəetmə" kafedrasında yerinə yetirilmişdir.

Elmi məsləhətçi: iqtisad elmləri doktoru, professor
Gülşən Zahid qızı Yüzbaşıyeva

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
Pəri Əmirəhməd qızı Həsənova

iqtisad elmləri doktoru, professor
Səfər Həsən oğlu Pürhani

iqtisad elmləri doktoru, professor
Nailə Rauf qızı Əliyeva

iqtisad elmləri doktoru, dosent
Aqil Məhiyəddin oğlu Əsədov

Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurası

Dissertasiya Şurasının sədri: AMEA-nın həqiqi üzvi, iqtisad elmləri doktoru, professor
Ziyad Əliabbas oğlu Səmədzadə

Dissertasiya Şurasının elmi katibi: iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
Samirə Yaşar qızı Məmmədova

Elmi seminarın sədri:

Əməkdar kənd təsərrüfatı işçisi, iqtisad elmləri doktoru, professor
İslam Hacı oğlu İbrahimov

İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Milli iqtisadiyyatın bazar yönümlü transformasiyası və onun mərhələli modernləşdirilməsi şəraitində Azərbaycanın yüngül sənaye sektorunun uzunmüddətli inkişafı üzrə problemlərin səmərəli həllinə ehtiyac aktual elmi və praktiki məsələ kimi ön plana çıxır. Xüsusilə də bu problemlərin həlli, istehlak mallarının istehsalını təmin edən sənaye komplekslərinin davamlı inkişaf mexanizmlərinin formalaşdırılmasını zəruri edir. Son onilliklər ərzində Azərbaycan iqtisadiyyatı yüksək və davamlı iqtisadi artım templəri nümayiş etdirmiş, sənaye sahəsinin inkişaf dinamikasına və əhatə dairəsinə görə region ölkələri və MDB məkanında fərqlənmişdir. Bu artımın əsas dayaq nöqtəsi isə sənayenin - xüsusilə emal sənayesi müəssisələrinin - müasir idarəetmə metodları əsasında yenidən təşkili və idarə olunması ilə bağlıdır. Belə şəraitdə yüngül sənayenin iqtisadi sistemdəki funksional rolunun daha da gücləndirilməsi və onun dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində yeni yanaşmaların işlənib hazırlanması zərurətə çevrilmişdir. Hazırkı mərhələdə ölkənin sənaye potensialının yüksəldilməsi bir sıra əsas amillərlə birbaşa bağlıdır. Bunlara dayanıqlı iqtisadi inkişafın təmin edilməsi, makro və mikroiqtisadi qeyri-sabitliyin aradan qaldırılması, yüngül sənaye sektorunda səmərəli idarəetmənin tətbiqi və bu sahənin strateji idarəetmə mexanizmlərinin modernləşdirilməsi daxildir. Qeyd olunan bütün istiqamətlər həm də ölkənin sosial rifahının, məşğulluq səviyyəsinin və regionların balanslı inkişafının təmin olunması baxımından həyati əhəmiyyət daşıyır. Bu baxımdan haqlı olaraq vurğulamaq olar ki, *yüngül sənayenin sabit və dinamik inkişafı ölkənin sosial-iqtisadi inkişaf modelinin əsas dayaqlarından biri kimi çıxış edir*.

Qeyd etmək lazımdır ki, keçən əsrin 90-cı illərini əhatə edən idarəetmə böhranı özünü digər sənaye sahələri ilə müqayisədə ən kəskin şəkildə məhz toxuculuq və ümumilikdə yüngül sənaye sahəsində göstərmişdir. Bu böhran xalq təsərrüfatında mərkəzləşdirilmiş idarəetmə sisteminin ləğvi nəticəsində, demək olar ki, bütün yüngül sənaye müəssisələrinin son dərəcə çətin iqtisadi vəziyyətə düşməsi ilə nəticələnmişdir. Çətinliklərlə qarşılaşan yüngül

sənaye sahəsi təkcə iqtisadi deyil, həm də təşkilati, texniki, maliyyə, sosial və psixoloji xarakterli çoxsaylı problemlərlə üz-üzə qalmışdı. Tədqiqat nəticələri göstərir ki, hazırda yüngül sənaye müəssisələrində mövcud olan idarəetmə sistemi nə kifayət qədər səmərəli inkişaf üçün baza formalaşdırır, nə də mövcud problemləri kompleks və operativ şəkildə həll edə bilir. Sektor hələ də aşağı informasiya ötürmə qabiliyyəti, zəif məntiqi-analitik potensial, qeyri-səmərəli informasiya axını və səmərəsiz təşkilati struktura malikdir. Bu səbəbdən də müasir iqtisadi şəraitdə yüngül sənaye müəssisələrinin idarəetmə aparatı çevik və optimal qərarların qəbulu baxımından ciddi məhdudiyyətlərlə qarşılaşır. Məhz bu məqsədlə *"Azərbaycan - 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"* sənədi qəbul edilmiş və sonradan bu istiqamətləri özündə əks etdirən *2022 - 2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası* hazırlanmışdır [1].

Azərbaycan Respublikası Prezidenininin 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası"nda qeyd edilir: *"Azərbaycan dövləti postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2022–2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsinə daxil olur. Bu strateji dövrdə yeni nəsil struktur və institusional islahatlar vasitəsilə iqtisadi artımın müasir və dayanıqlı mənbələrinin hərəkətə gətirilməsi, milli iqtisadiyyatın innovasiya yönümünün və maliyyə dayanıqlığının daha da gücləndirilməsi, ölkə iqtisadiyyatının qlobal dəyər zəncirinə səmərəli inteqrasiyası yolu ilə Azərbaycan dövləti öz qüdrətini daha da artırmaqla, yüksək rifah cəmiyyətinin qurulması istiqamətində yeni hədəfləri gerçəkləşdirmək əzmindədir"* [2].

Bütün bu qeyd edilənlərə əsaslanaraq demək olar ki, milli iqtisadiyyatın mühüm sahələrindən biri kimi yüngül sənayenin qarşısında son dərəcə məsul vəzifələr durur. Bu vəzifələrin icrası təkcə qısamüddətli dövrü deyil, həm də uzunmüddətli inkişaf perspektivini

[1] Azərbaycan 2030: sosial- inkişafa dair Milli Prioritetlər // 2 fevral 2021-ci ildə təsdiq edilmişdir. – Bakı: Qanun, – 2021.

[2]"Azərbaycav Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli Sərəncamı, Bakı – 2022. - 88 s.

əhatə edən kompleks yanaşmalar tələb edir. Əsas strateji məqsəd – milli iqtisadiyyatın qloballaşan dünya sisteminə inteqrasiyası şəraitində daxili bazarın formalaşdırılması və rəqabətqabiliyyətli yerli məhsullarla təmin edilməsi prosesində yüngül sənayenin rolunun əhəmiyyətli dərəcədə artırılmasıdır.

Yerli yüngül sənaye sektorunun perspektiv imkanlarının qiymətləndirilməsi xüsusi elmi-metodoloji yanaşmaların və praktik tənzimləmə vasitələrinin işlənib hazırlanmasını zəruri edir. Bu isə təqdim olunan dissertasiya tədqiqatının aktuallığını əvvəlcədən şərtləndirən əsas amillərdən biri kimi çıxış edir. Belə yanaşma, obyektiv əsaslandırılmış elmi mövqedən çıxış edərək, yüngül sənayenin strateji inkişaf istiqamətlərinin həyata keçirilməsinə və bu sahəyə təsir göstərə biləcək yeni iqtisadi və institusional amillərin müəyyənləşdirilməsinə imkan verir.

Mövzunun işlənmə dərəcəsinə gəldikdə isə qeyd olunmalıdır ki, yüngül sənayenin uzunmüddətli inkişafının tənzimlənməsi ilə bağlı nəzəri-metodoloji və praktiki aspektlər Azərbaycan iqtisad elminin müxtəlif nümayəndələri tərəfindən araşdırılmışdır. Bu istiqamətdə tədqiqatlar aparmış alimlər sırasında Səmədzadə Z.Ə., Quliyev E.A., İbrahimov İ.H., Yüzbaşiyeva G.Z., İbrahimov E.Ə., İsmayılov V.A., Abbasov İ.M., Ataşov B.X., Bağırov M.M., Ələkbərov Ə.Ə., Əliyev T.N., Hacıyev F.O., Mehdiyev X.O., Məmmədov F.Ə., Vəliyev F.Ə., Sailov R.A., və digər alimlərin adlarını qeyd etmək olar. Onların əsərlərində yüngül sənayenin inkişafı, struktur islahatlar, resursların səmərəli istifadəsi və dövlət siyasətinin rolu kimi mühüm məsələlər öz əksini tapmışdır.

MDB ölkələrində Abutalipova L.N., Akramova O.K., Bondarev V.M., Borovskikh N.V., Gavrilyuk A.V., Gvilia N.A., Gorevaya E.S., Bedareva K.V., Epanchintseva S.E., Ivashchenko N.S., Kadnikova A.O. kimi iqtisadçı alimlərin əsərlərində yüngül sənayenin inkişafına dair müxtəlif yanaşmalara rast gəlinir.

İnkişaf etmiş ölkələrdə isə yüngül sənayenin idarə olunması, iqtisadi tənzimlənməsi və səmərəli fəaliyyət mexanizmlərinin öyrənilməsi sahəsində Ballou R.H., Jeffrey H. Moore, Larry R., Rothbarth E., Ali S.H. və digər tanınmış tədqiqatçıların əsərləri xüsusi əhəmiyyət kəsb edir.

Lakin qeyd edilən araşdırmaların əksəriyyətində yüngül sənayenin iqtisadi tənzimlənməsi mexanizminin struktur elementləri və bu elementlər arasında qarşılıqlı əlaqələr, habelə sektorun spesifik xüsusiyyətləri nəzərə alınmaqla kompleks şəkildə, sistemli tədqiq olunmamışdır. İdarəetmə, rəqabət mühiti, pul-kredit və fiskal siyasətin qarşılıqlı təsiri və bu əlaqələrin səmərəliliyinin artırılması məsələlərinə isə mövcud tədqiqatlarda kifayət qədər diqqət yetirilməmişdir. Məhz bu boşluğu doldurmaq məqsədilə təqdim olunan tədqiqatda yuxarıda göstərilən amillər bir-biri ilə uzlaşdırılmış şəkildə təhlil edilir və yeni elmi əsaslarla qiymətləndirilir.

Tədqiqatın obyekti və predmeti. Tədqiqatın obyekti Azərbaycan Respublikasında fəaliyyət göstərən yüngül sənaye sahələri və bu sahənin inkişafında iştirak edən müəssisələr və idarəetmə orqanlarıdır.

Tədqiqatın predmetini yüngül sənaye sektorunda uzunmüddətli və dayanıqlı inkişafı təmin edən iqtisadi tənzimləmə və idarəetmə mexanizmləri, tətbiq olunan metodoloji yanaşmalar, inkişaf meylləri, səmərəlilik göstəriciləri və bu sahənin fəaliyyətinə təsir edən daxili və xarici amillər təşkil edir.

Tədqiqatın məqsəd və vəzifələri. Tədqiqatın məqsədi Azərbaycan Respublikasında yüngül sənaye sektorunun uzunmüddətli inkişafını təmin etmək üçün müasir idarəetmə yanaşmalarını və iqtisadi tənzimləmə mexanizmlərini elmi-nəzəri əsaslarla qiymətləndirməkdən, bu sahənin dayanıqlı inkişaf istiqamətlərini müəyyənləşdirmək və səmərəli idarəetmə modelini formalaşdırmaqdan ibarətdir. Bu məqsədə çatmaq üçün aşağıdakı elmi və praktik vəzifələr qarşıya qoyulmuşdur:

- müasir şəraitdə yüngül sənaye müəssisələrində tətbiq olunan idarəetmə alətlərinin və metodlarının sistemləşdirilməsi və səciyyələndirilməsi;
- iqtisadiyyatda rəqabət mühitinin kəskinləşməsi şəraitində səmərəli idarəetmə yanaşmalarının rolunun təhlil edilməsi;
- yüngül sənaye sektorunun dayanıqlı inkişafının elmi-metodoloji əsaslarının araşdırılması;
- yüngül sənaye sahələrinin inkişaf dinamikasının müqayisəli təhlili;
- Azərbaycan yüngül sənayesinin mövcud vəziyyəti və xarici

iqtisadi amillərin sektora təsirinin qiymətləndirilməsi;
- sənaye müəssisələrinin yeniləşdirilmə imkanları və innovasiya potensialının üzə çıxarılması;
- iqtisadi tənzimləmə vasitələri və makroiqtisadi strukturun inkişaf istiqamətləri üzrə sektorun rolu və imkanlarının müəyyənləşdirilməsi;
- strateji idarəetmə baxımından yüngül sənaye müəssisələrində təşkilati strukturun modelləşdirilməsi və optimallaşdırılması;
- rəqəmsallaşma və biznes proseslərin səmərəliliyinin artırılması istiqamətində təkliflərin işlənməsi;
- dövlətin strateji prioritetlərinə uyğun olaraq yüngül sənaye sahəsinin inkişafında idarəetmə və iqtisadi mexanizmlərin təkmilləşdirilməsi yollarının araşdırılması.

Tədqiqatın metodları. Tədqiqatın metodoloji əsasını yüngül sənaye sektorunun inkişafını təmin edən müasir iqtisadi tənzimləmə üsulları və sistemli yanaşmalar təşkil edir. Dissertasiya işində mövzunun kompleks şəkildə araşdırılması məqsədilə ekonometrik modelləşdirmə, iqtisadi-statistik təhlil, məntiqi ümumiləşdirmə, proqnozlaşdırma, qruplaşdırma və müqayisəli qiymətləndirmə kimi elmi tədqiqat metodlarından istifadə olunmuşdur. Bu metodlar sektorun struktur xüsusiyyətlərini, inkişaf meyllərini və səmərəlilik səviyyəsini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət daşıyır.

Tədqiqat zamanı həmçinin yüngül sənaye sahəsinin inkişafı ilə bağlı təşkilati-iqtisadi tənzimləmə mexanizmlərinə dair mövcud elmi ədəbiyyat, normativ-hüquqi sənədlər, habelə dövlətin iqtisadi siyasətinə dair strateji sənədlər də geniş şəkildə təhlil edilmişdir. Xüsusilə, sahənin inkişafına dair mövcud qanunvericilik aktları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Nazirlər Kabinetinin qərarları, Dövlət Statistika Komitəsinin rəsmi məlumatları, "Azərbaycan Respublikasında Strateji Yol Xəritələri", “2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” və digər dövlət proqramları əsas informasiya mənbələri kimi çıxış etmişdir. Bütün bu metodoloji və informasiya bazası tədqiqatın elmi əsaslara söykənməsini, təhlil və nəticələrin obyektivliyini təmin etməklə yanaşı, yüngül sənayenin uzunmüddətli inkişaf istiqamətlərinin əsaslandırılmasına zəmin yaratmışdır.

Müdafiəyə çıxarılan əsas müddəalar. Dissertasiyanın məqsədinə uyğun olaraq yüngül sənayenin uzunmüddətli inkişafının tənzimləməsi problemlərin araşdırılması və həlli məqsədi ilə aşağıdakı müddəalar müdafiəyə çıxarılmışdır:

- yüngül sənaye müəssisələri arasında iqtisadi münasibətlərin dinamikası, yalnız xarici amillərdən deyil, eyni zamanda daxili lokal maraqlardan da asılıdır;
- qlobal iqtisadi inteqrasiya şəraitində, yüngül sənaye məhsullarının istehsalı və ticarəti ölkələrin xarici iqtisadi siyasət prioritetlərinə uyğun olaraq daha yüksək inteqrasiyanı və koordinasiyanı tələb edir;
- qloballaşma şəraitində, yüngül sənaye sahəsinin beynəlxalq əmək bölgüsünə daxil olması investisiya, yeni texnologiya və insan kapitalının regional dövriyyəsini zəruri edir;
- yüngül sənaye müəssisələrinin təşkilati strukturunun modernləşdirilməsi və idarəetmənin çevik modellərə keçidi sektorun dayanıqlı inkişafını təmin edir;
- ənənəvi sənaye klasterlərinin ərazi məhdudiyyətləri müasir istehsal-satış şəbəkələrinin geniş coğrafiyada formalaşmasına imkan vermədiyindən, yeni "təşkilati-idarəetmə klaster" modelinin tətbiqi təklif olunur;
- alternativ idarəetmə yanaşmalarının sintezi və optimal modellərin tətbiqi vasitəsilə vahid idarəetmə sisteminin formalaşdırılması məqsədəuyğundur;
- yüngül sənaye sektorunun fəaliyyətinin yenilənməsi kompleks yanaşma tələb edir, bu prosesdə bütün təşkilati, texnoloji və sosial elementlər arasında qarşılıqlı asılılıq mövcuddur;
- sahibkarlıq subyektlərinin maraqlarını uzlaşdırmaq üçün kompleks iqtisadi, sosial və hüquqi mexanizmlər sistemi formalaşdırılmalıdır;
- kadr potensialının idarə olunması və maddi həvəsləndirmə sistemi müəssisənin ümumi idarəetmə strukturunun təkmilləşdirilməsinin vacib elementlərindəndir.

Tədqiqatın elmi yeniliyi. Dissertasiyanın elmi yeniliyi aşağıdakı əsas istiqamətlərdə özünü göstərir:

- Azərbaycan yüngül sənayesinin modernləşdirilməsinə əsaslanan strateji idarəetmə modeli ilk dəfə olaraq elmi əsaslarla işlənilmişdir;
- yüngül sənaye məhsullarının (xüsusilə ayaqqabı məhsullarının) daxili və xarici bazarlarla iqtisadi inteqrasiyasına dair funksional model təklif olunmuşdur;
- sektorun modernləşdirilməsi prosesində idarəetmə siyasətinin prinsipləri və istiqamətləri müəyyənləşdirilmişdir;
- təşkilati-idarəetmə klaster modelinin strukturu formalaşdırılmış və onun beynəlxalq istehsal-satış zəncirləri ilə əlaqə sxemi təqdim olunmuşdur;
- səmərəli modernləşdirmə mexanizmlərinin struktur və inkişaf strategiyası hazırlanmışdır.
- yüngül sənayedə yenilənmənin əsas istiqamətləri və mərhələli inkişaf təsnifatı elmi dövriyyəyə daxil edilmişdir;
- xarici ölkələrin təcrübəsinə əsasən, sektorun maliyyələşdirilmə mexanizmləri sistemləşdirilərək təqdim olunmuşdur;
- "İstehsal - nəqliyyat - anbar" zəncirinin səmərəli idarə edilməsi üçün dinamik proqramlaşdırma modelləri işlənmişdir;
- kadrların ixtisasartırma sisteminin funksional elementlər strukturu tərtib olunmuşdur;
- müəssisə səviyyəsində təsərrüfat idarəetmə mexanizminin yeni variantı təklif olunmuş və trikotaj müəssisələri üçün optimal təşkilati strukturun nümunəsi işlənilmişdir;
- yüngül sənaye məhsullarının optimallaşdırılmış seçimi üçün variantların təhlilinə və dinamik proqramlaşdırma tətbiqinə əsaslanan qərar qəbuletmə modeli formalaşdırılmışdır.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti. Dissertasiya işinin nəzəri əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycan Respublikasında yüngül sənaye sektorunun uzunmüddətli və dayanıqlı inkişafının elmi əsaslarla tənzimlənməsi istiqamətində irəli sürülmüş nəzəri-metodoloji müddəalar, idarəetmə və tənzimləmə modelləri bu sahədə aparılacaq gələcək tədqiqatlar üçün etibarlı elmi baza və istinad mənbəyi ola bilər. İşdə təqdim olunan elmi yanaşmalar sektorun inkişafında mövcud təşkilati-iqtisadi və institusional problemlərin

həllinə, eləcə də idarəetmə mexanizmlərinin optimallaşdırılmasına nəzəri dəstək verə bilər.

Tədqiqatın praktiki əhəmiyyəti isə ondan ibarətdir ki, dissertasiyada irəli sürülmüş nəticə və tövsiyələr yüngül sənaye sektorunun strateji inkişafı üzrə dövlət proqramları və layihələrin hazırlanmasında, iqtisadi siyasətin formalaşdırılması zamanı müvafiq dövlət qurumlarının, istehsal müəssisələrinin fəaliyyətində, eləcə də sahəvi idarəetmə orqanlarının qərarqəbuletmə prosesində tətbiq oluna bilər.

Bununla yanaşı, dissertasiyanın nəticələri ali təhsil müəssisələrində "Sənaye iqtisadiyyatı", "Menecment" və "İqtisadi siyasət" kimi fənlərin tədrisində yardımçı material kimi istifadə oluna bilər. Bu isə tədqiqatın həm elmi-pedaqoji, həm də praktik əhəmiyyətini artıran əsas göstəricilərdəndir.

Aprobasiyası və tətbiqi. Dissertasiya işinin əsas mahiyyəti müəllif tərəfindən irəli sürülən nəzəri - metodoloji və praktiki xarakterli mülahizələr, yeni elmi yanaşmalar, təkliflər və tövsiyələr cəmi 15 məqalə və 9 tezisdə (ondan 11 məqalə və 4 tezis xaricdə olmaqla) dərc edilmişdir. Konfrans materialları sırasında "Respublikamızın toxuculuq sənaye müəssisələrində kadr təminatının mövcud vəziyyəti və inkişaf perspektivləri" (Mingəçevir, 2020), "Факторы, влияющие на конкурентоспособность продукции легкой и текстильной промышленности" (Москва, 2023), "Развитие рынка потребительских товаров в новых условиях" (Москва, 2024) adlı tezisləri göstərmək olar. Tədqiqat zamanı müəllifin həmçinin "Respublikamızda yungül sənaye müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi yolları" (Bakı, 2019), "Современные тренды развития легкой промышленности Азербайджана" (Курск, 2022), "Ключевые характеристики логистики и управления цепочками поставок в секторе легкой промышленности" (Иваново, 2024), "Analysis Of Symbolic Meanings Used In National Clothes Of Bukhara, Samarkand And Nurata" (2022), "Investigation of the Strength of Thread Connections of Parts of Workwear Made of Fabric of New Structures" (2022) adlı məqalələri dərc olunmuşdur.

İddiaçının tədqiqat işinin əsas elmi müddəaları və tövsiyələri

“Gəncə tekstil” ASC-nin Elmi-texniki Şurasında tətbiq üçün qəbul edilmişdir (03.02.2025-ci il tarixli 1 saylı arayış).

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı. Azərbaycan Texnologiya Universiteti.

Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla işarə ilə ümumi həcmi. Dissertasiya işi giriş, 4 fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Giriş 15301 işarə, birinci fəsil 92673 işarə, ikinci fəsil 74550 işarə, üçüncü fəsil 137842 işarə, dördüncü fəsil 109350, nəticə 12580 işarə və istifadə edilmiş ədəbiyyat siyahısı 33515 işarədən ibarətdir. Dissertasiyanın ümumi mətn hissəsi cədvəllər, qrafiklər, əlavələr və ədəbiyyat siyahısı istisna edilməklə 442296 işarə təşkil edir.

MÜNDƏRİCAT

GİRİŞ
I FƏSİL. YÜNGÜL SƏNAYENİN İNKİŞAFININ İDARƏ EDİLMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

1.1. Müsair şəraitdə yüngül sənaye müəssisələrinin idarəetmə alətləri
1.2. Rəqabət mühitində idarəetmənin yeni yanaşmaları və innovasiyalar
1.3. Yüngül sənayenin dayanıqlı inkişafının elmi-nəzəri əsasları

II FƏSİL. AZƏRBAYCANDA YÜNGÜL SƏNAYE SEKTORUNUN MAKROİQTİSADİ TƏHLİLİ VƏ VƏZİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ

2.1. Yüngül sənaye sektorunun makroiqtisadi göstəriciləri və milli iqtisadiyyatda sektorial mövqeyi
2.2. Yüngül sənaye sektorunun müasir inkişaf səviyyəsi və xarici iqtisadi əlaqələrin təhlili
2.3. Yüngül sənaye müəssisələrinin yeniləşməsinin mövcud imkanları

III FƏSİL. YÜNGÜL SƏNAYENİN İQTİSADİ TƏNZİMLƏNMƏ MEXANİZMLƏRİ VƏ İDARƏETMƏ MODELİNİN FORMALAŞMASI

3.1. Yüngül sənaye sektorunda inkişaf meyilləri
3.2. Sənaye məhsullarının iqtisadi tənzimlənməsi: qiymət formalaşması, bazar mexanizmləri və ixrac siyasəti
3.3. Azərbaycanın yüngül sənaye müəssisələrində təşkilati proseslərin modelləşdirilməsi
3.4. Yüngül sənaye müəssisələrində biznes-proseslərin optimallıq modellərindən istifadə

IV FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASINDA YÜNGÜL SƏNAYENİN SƏMƏRƏLİ İDARƏEDİLMƏSİ

4.1. Yüngül sənaye siyasətində milli prioritetlərin müəyyənləşdirilməsi və strateji hədəflər
4.2. İdarəetmə sisteminin təkmilləşdirilməsi və institusional yanaşmalar
4.3. İqtisadi mexanizmlərin təkmilləşdirilməsi və stimullaşdırma vasitələri

NƏTİCƏ
İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **giriş** hissəsində mövzunun aktuallığı, problemin öyrənilməsi vəziyyəti, tədqiqatın məqsəd və vəzifələri, obyekti, predmeti, elmi yeniliyi, təcrübi əhəmiyyəti və aprobasiyası şərh olunmuşdur.

Dissertasiya işinin "**Yüngül sənayenin inkişafının idarəedilməsinin nəzəri-metodoloji əsasları**" adlı I-ci fəslində müasir şəraitdə yüngül sənaye müəssisələrinin idarəetmə alətləri; rəqabət mühutundə idarəetmənin yeni yanaşmaları və innovasiyalar və yüngül sənayenin dayanaqlı inkişafının elmi-nəzəri əsasları tədqiq olunub.

XX əsrin sonlarında Azərbaycan iqtisadiyyatının bazar münasibətləri əsasında inkişafı əsasən xarici təcrübənin bazar islahatları sahəsində ümumiləşdirilməsi ilə xarakterizə olunurdu. Lakin müasir mərhələdə iqtisadi elmdə və təcrübədə qlobal rəqabət mühitinə uyğun yeni idarəetmə yanaşmalarının tətbiqinə ehtiyac daha aydın görünür. Bu, xüsusilə qlobal maliyyə böhranının təsiri altında Azərbaycan iqtisadiyyatında, o cümlədən yüngül sənaye müəssisələrinin fəaliyyət və inkişaf problemlərinin təhlili zamanı özünü daha qabarıq göstərir. Tədqiqatlar göstərir ki, *yüngül sənaye emal sənayesinin alt sahələrinə daxil olub, qeyri-neft sənaye sektorunun tərkib hissəsini təşkil edir. Bu sənaye sahəsi özünün strukturu, xammal bazası və özünün xüsusiyyətləri ilə fərqlənir. Yüngül sənaye özünəməxsus tarixi inkişaf yolu keçmiş və hazırda mürəkkəb texnologiyalara əsaslanan çoxçeşidli xalq istehlak malları istehsal edən sahədir*[3].

Yüngül sənaye - müxtəlif növ xammaldan kütləvi istehlak əşyaları istehsal edən və istər xammalın ilkin emalını, istərsə də, aşağıdakılar da daxil olmaqla, hazır məhsul buraxılışını həyata keçirən ixtisaslaşdırılmış sənaye sahələrinin məcmusudur:

- pambıq, ipək, kətan, çətənə və tor toxuma, trikotaj, xalçaçılıq, keçəçilik sahələri daxil olmaqla toxuculuq;
- tikiş (geyim) sahəsi;

[3] Abbasov İ.M. Əliyev T. N. Qeyri neft sənayesinin iqtisadiyyatı./ İ.M. Abbasov, T.N. Əliyev, Dərslik. Bakı, "Elm və Təhsil" - 2017.-501 s.

- qalantereya məhsulları;
- dəri və dəri məmulatları;
- xəzçilik;
- ayaqqabı istehsalı.

Hazırda Azərbaycanın yüngül sənaye sektorunda təxminən 50 min nəfər çalışır, onlardan 42 mini dəri və ayaqqabı istehsalı sahəsində fəaliyyət göstərir. Lakin, hazırkı dövrdə yüngül sənaye müəssisələrinin böyük əksəriyyəti ciddi iqtisadi çətinliklərlə üzləşir. Xüsusilə, ayaqqabı sektorundakı problemlər daha kəskin xarakter daşıyır. Məsələn, keçmiş SSRİ dövründə hər il təxminən 800 milyon cüt ayaqqabı istehlak olunurdu ki, bunun da 45%-i (350 milyon cüt) yerli sənaye tərəfindən təmin edilirdi, qalanı isə idxaldan asılı idi. Bu gün isə ekspertlərin qiymətləndirməsinə əsasən, yerli ayaqqabı bazarının həcmi ildə təxminən 400 milyon cüt təşkil edir ki, adambaşına düşən ayaqqabı miqdarı ildə 1,5 cütdür. Bu kontekstdə yüngül sənayenin ayaqqabı sahəsinin iqtisadi inkişaf siyasətinin əsas vektorları, xüsusilə hazır ayaqqabı, xammal və komplektləşdiricilərin idxalı məsələləri köklü şəkildə fərqlənir.

Azərbaycanda yüngül sənayenin böhranı əsasən "süni yaradılmış" xarakter daşıyırdı. Hadisələrin sonrakı inkişafı həm xalq istehlakı mallarının daxili istehsalının həyat qabiliyyətini, həm də onun inkişaf etmək qabiliyyətini təsdiq etdi[4]. Bunun üçün müəssisələrin idarə olunması və korporativ qruplar formasında birləşməyə yeni yanaşmalar tələb olundu. Hazırda yüngül sənaye məhsullarının istehsalı və satışı sahəsində biznesin obyektiv qloballaşma meylləri onun başlıca xarakteristikalarından birinə, yüngül sənaye malları bazarının keyfiyyətcə yeni inkişaf mərhələsinə çevrildi ki, bu da ümumilikdə yüngül sənaye müəssisələrinin təşkilati-iqtisadi idarəetmə mexanizmlərinin transformasiyasına ehtiyacı müəyyən edir. Yaxın illərdə iqtisadiyyatda qloballaşma prosesi aşağıdakılarla xarakterizə oluna bilər[5]:

[4] Егоршин, А. П. Эффективный менеджмент организации : учебное пособие / А.П. Егоршин. - Москва : ИНФРА-М, 2021. - 388 с.

[5] Володина, О.А. Инновационный менеджмент: учеб. пособие / О.А. Володина, Е.Ю. Фаддеева, А.А. Неретин. – М.: МАДИ, 2019. – 96 с.; s. 85


- *iqtisadiyyatların iqtisadi və informasiya inkişafının inteqrasiyası, vahid informasiya və investisiya məkanlarının yaradılması;*
- *bazarların, idarəetmə sistemlərinin və istehsalat strukturunun qarşılıqlı inteqrasiyası, bu inteqrasiyanın dünya ticarətində iştirak edən subyektlər üçün rəqabət üstünlüyü yaratması;*
- *informasiya və telekommunikasiya texnologiyalarının qabaqlayıcı inkişafı, onların sənaye istehsalında və idarəetmədə tətbiq sahələrinin genişlənməsi;*
- *düzgün informasiya təminatına və investisiya qərarlarının beynəlxalq səviyyədə normativ-hüquqi reqlamentasiyasına əsaslanan yeni investisiya texnologiyalarının formalaşması;*
- *insan fəaliyyətinin bütün sahələrində yüksək texnologiyaların tətbiqi, bu texnologiyaların həyat tərzi və istehsal vasitələrində köklü dəyişikliklərə səbəb olması;*
- *investisiya bazarının infrastrukturunun balanslaşdırılmış inkişafı, investisiya institutlarının funksional inteqrasiyası və maliyyə alətlərinin vahid sistemə yönləndirilməsi;*
- *investisiya qanunvericiliyinin unifikasiyası və beynəlxalq səviyyədə dövlətlərarası hüquqi razılaşmaların yaradılması, bu prosesin investisiya axınlarına birbaşa təsirinin artırılması;*
- *kapitalın daha əlverişli investisiya şəraiti olan regionlara azad və çevik yerdəyişməsi imkanı.*

Qloballaşmanın mənfi cəhətləri arasında dünya iqtisadiyyatının və müvafiq olaraq, Azərbaycan iqtisadiyyatının inkişafının qanunauyğunluqları qismində olan müxtəlif növ böhran halları və təhdidləri göstərmək olar ki, bu da sonrakı gərginləşmənin mümkünlüyünu fərqləndirməlidir. Son dövrlərdə biz bu cür yeni halın meydana çıxmasını xaricdə yerləşən xarici şirkətlər tərəfindən və xarici şirkətlərin milli törəmə strukturları tərəfindən ölkəmizin iqtisadiyyatında rəqabətin güclənməsi kimi vurğulaya bilərik. Bununla da əlaqədar olaraq ümumilikdə modernləşdirici idarəetmə metodlarının inkişaf problemləri və xüsusi olaraq, yerli yüngül sənaye müəssisələrində böhran təhdidlərinə qarşı mübarizədə yeni baxış tələb olunur. Modernləşdirici dəyişikliklərin aparılması şəraitində yüngül sənaye müəssisələrinin işi üçün modernləşdirici idarəetmə texnologiyalarının əhəmiyyəti daima artmaqdadır və bu onları istər

dövlət orqanları, istərsə də, kommersiya təşkilatları və xüsusilə də onların strateji idarəetmə, o cümlədən, müxtəlif xarici zərərli təsirlərə qarşı mübarizə ilə məşğul olan strukturlarının ciddi diqqət obyektinə çevirir. Bu təsirlər arasında da xarici korporasiyalar (Çin, Türkiyə və s.) tərəfindən rəqabətin artması, xüsusilə də, modernləşdirici dəyişikliklərin aparılması şəraitində ən böyük təhlükədir. Beləliklə də, yüngül sənaye üçün ciddi təhlükəni həmçinin xarici rəqabətin ən təhlükəli formalarının milli iqtisadiyyatın dünya iqtisadiyyatı ilə davam edən inteqrasiyası şəraitində xüsusilə təhlükəli olan güclənməsi yaradır. Qlobal maliyyə böhranının nəticələri ilə bağlı iqtisadi vəziyyətlərin fərqləndirici xüsusiyyəti qısa müddətdə idarəetmə qərarlarının qəbul edilməsi zərurətidir. Bir qayda olaraq, qlobal maliyyə böhranının nəticələri səbəbindən səmərəli idarəetmə qərarlarının qəbul edilməsi və həyata keçirilməsində problem vəziyyətin daha yüksək səmərə ilə qiymətləndirilməsi üçün zəruri olan informasiyanın kifayət etməməsidir. Belə şəraitdə idarəetmə qərarlarının səmərəliliyi üçün müvafiq informasiya resurslarının məhdudluğu əlavə çətinliklər yaradır. Nəticədə, verilənlərin intellektual təhlili, operativ qərar qəbuletmə texnologiyalarının tətbiqi daha da aktuallaşır. Qlobal böhran şəraitində sənaye müəssisələrinin idarə olunması aşağıdakı spesifik xüsusiyyətlərlə fərqlənir:

1. müəssisə inkişafının fərdi və spesifik xarakteri;
2. qısa zamanda qərar qəbul etmə zərurəti;
3. xarici iqtisadi mühitin qeyri-müəyyənliyi və dəyişkənliyi;
4. verilənlərin çoxluğu və struktur müxtəlifliyi;
5. rəqabətə davamlılıq baxımından çoxamillilik, çoxsəviyyəlilik və kompleks qarşılıqlı əlaqələrin mövcudluğu.

Funksional bloklar arasındakı qarşılıqlı əlaqə və onların xarici amillərə reaksiyası yüngül sənayenin iqtisadi inkişafının istiqamətini müəyyən edir. Bu mürəkkəb sistemin uğurlu idarə edilməsi dövlət orqanları və özəl sektorun səylərinin inteqrasiyasını, müxtəlif müəssisələrin fəaliyyətinin əlaqələndirilməsini və çağırışlara cavab vermək üçün səmərəli strategiyaların hazırlanmasını tələb edir. Sxem 1-də göstərilənə oxşar sxem bu qarşılıqlı əlaqəni vizuallaşdıra bilər, funksional bloklar, xarici amillər və strateji inkişaf məqsədləri arasındakı əlaqəni nümayiş etdirər.



Sxem 1. Azərbaycanın yüngül sənayesinin modernləşdirilməsi şəraitində strateji inkişafının idarəetmə modeli

Mənbə: *müəllif tərəfindən tərtib edilmişdir.*

Azərbaycan yüngül sənayesinin müasir modernizasiya şəraitində uğurlu strateji idarə olunması bütün idarəetmə səviyyələrində qərar qəbuletmə keyfiyyətinin köklü şəkildə yaxşılaşdırılmasını tələb edir. Bu, təkcə iqtisadi, maliyyə, istehsal, kadr və digər daha səmərəli funksional idarəetmə sistemlərinin yaradılmasını deyil, həm də qabaqcıl idarəetmə və informasiya texnologiyalarına, eləcə də böyük məlumatların müasir təhlil metodlarının tətbiqinə əsaslanan kompleks strategiya işlənib hazırlanmasını və tətbiqini əhatə edir. Qloballaşma, güclənən rəqabət və yüngül sənayedə biznesin transmilliləşməsi ənənəvi idarəetmə konsepsiyalarının yenidən nəzərdən keçirilməsi və yeni bazar reallıqlarına uyğunlaşma zərurətini diktə edir. Bu da həmin sahədə müasir idarəetmə sistemlərinin fəaliyyət səmərəliliyini müəyyən edən bir sıra qarşılıqlı əlaqəli vəzifələrin həllini nəzərdə tutur. Bazar mexanizmlərinin inkişafının qlobal meyillərinin təhlili bu problemləri sistemləşdirməyə və onların həlli üçün səmərəli strategiyalar işləyib hazırlamağa imkan verir. Bu prosesdə, həmçinin, rəqabətədavamlılığın artırılması, innovasiyaların stimullaşdırılması və resursların optimal idarə olunması mühüm rol oynayır.

Araşdırmalar göstərir ki, son illər Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasının ən mühüm təzahürü milli biznesin qloballaşdırılması və transmilliləşdirilməsi olub ki, bu da onun beynəlxalq rəqabət qabiliyyətinin ümumilikdə milli rəqabət qabiliyyətinin yüksəldilməsinə yardım edən artımından xəbər verir.

Yüngül sənayedə, biznesin qloballaşması və transmilliləşməsinin çoxlu aspektləri mövcuddur. Onların arasında aşağıdakıları göstərmək olar:

- xaricdən istehsalat və ticarət aktivlərinin əldə olunması;
- beynəlxalq əmtəə və maliyyə bazarlarına çıxış;
- beynəlxalq korporativ alyanslarda və kooperasiya haqqında müxtəlif sazişlərdə iştirak;
- xarici mütəxəssislərin cəlb edilməsi və yerli mütəxəssislərin xaricdə işi;
- innovasiyaların beynəlxalq dövriyyəsi;
- xarici aktivlərin idarə olunması və s.

Dissertasiya işinin "**Azərbaycanda yüngül sənaye sektorunun makroiqtisadi təhlili və vəziyyətin qiymətləndirilməsi**" adlı II-ci fəslində yüngül sənaye sektorunun makroiqtisadi göstəriciləri və milli iqtisadiyyatda sektorial mövqeyi; yüngül sənaye sektorunun müasir inkişaf səviyyəsi və xarici iqtisadi əlaqələrin təhlili və yüngül sənaye müəssisələrinin yeniləşməsinin mövcud imkanları kimi məsələlər tədqiq olunur.


Müasir dünyada davamlılıq və ekoloji məsuliyyət hər bir sənaye üçün əsas amillərdir. Azərbaycanın yüngül sənaye sektoru ətraf mühitə təsirini minimuma endirmək üçün davamlı təcrübələr həyata keçirməlidir. Buraya enerjiyə qənaət edən istehsal proseslərinin tətbiqi, texnologiyaların yaradılmasının azaldılması və ekoloji cəhətdən təmiz materiallardan istifadənin təşviqi daxildir. Davamlılığı prioritetləşdirməklə, sənaye ekoloji cəhətdən şüurlu istehlakçıları cəlb edə və həm yerli, həm də qlobal miqyasda nüfuzunu artıra bilər.

Azərbaycanda yüngül sənaye sektorunun inkişafı iqtisadiyyatın şaxələndirilməsi və neft sektorundan asılılığın azaldılması üçün böyük potensiala malikdir. Kənd təsərrüfatı sektorundan istifadə etməklə, dövlət dəstəyi və vergi güzəştləri verməklə, idxal məhdudiyyətlərini tətbiq etməklə, infrastrukturu inkişaf etdirməklə, innovasiyaları təşviq etməklə, bacarıqların inkişafına sərmayə qoymaqla, bazar araşdırmaları aparmaqla və davamlı təcrübələri tətbiq etməklə yüngül sənaye inkişaf etdirə və iqtisadi artıma mühüm töhfə verə bilər. Strategiya və bütün maraqlı tərəflərin birgə səyləri düzgün aparılarsa, Azərbaycan özünü qlobal yüngül sənaye bazarında rəqabətədavamlı oyunçu kimi göstərə bilər.

Hazırda Azərbaycanın yüngül sənayesi idxaldan yüksək asılılıq problemi ilə üzləşir ki, bu da bu sənayenin mallarına olan daxili tələbatın 80%-dən çoxunu ödəyir. Bununla yanaşı, ölkədə hələ tam istifadə olunmamış yüngül sənayenin inkişafı üçün əhəmiyyətli potensial var. Biz Azərbaycanda toxuculuq sənayesinin inkişafı üçün çağırışlara və imkanlara baxacaq, həmçinin mövcud çatışmazlıqların aradan qaldırılması üçün həll yollarına dair təkliflər hazırlamağı məqsədəuyğun hesab edirik.

Azərbaycan keçmişdə Şəki İpək Kombinatı kimi iri toxuculuq müəssisələri ilə tanınırdı. Fəaliyyətinin zirvəsində bu fabrikdə 4 min

nəfərə qədər işçi işləyirdi. Lakin müəssisə bu gün tam gücü ilə işləmir. Əvəzində bazarda Türkiyə, İran, Çin və digər Avropa ölkələrindən gətirilən yüngül sənaye malları üstünlük təşkil edir.



Qrafik 1. Yüngül sənaye müəssisələrin anbarlarında hazır məhsul ehtiyatı, (milyon manat)

Mənbə: Qrafik ADSK-nin məlumatları əsasında tərtib edilib.

Qrafik 1-dən görmək olar ki, yüngül sənaye müəssisələri istehsalatında 2023-cü ili sonuna kifayət qədər, yəni 88 mln manatlıq məhsul yığılıb qalmışdır. Halbuki, 2022-ci ilin sonuna bu rəqəm cəmi 34.5 mln. manat təşkil etmişdir. Bu isə, zənnimizcə, ona dəlalət edir ki, milli yüngül sənaye müəssisələrinin təklif etdiyi məhsula tələb nisbətən azalmışdır. Görünür ki, buna daha çox istehsal məsrəflərin artması və bazarda idxal olunan trikotaj və tekstil mallarının qiymətlərində enmələr (xüsusən, Türkiyə istehsalı olan mallara, çünki türk lirəsinin ABŞ dollarına nisbətən kəskin enişi bu ölkədən idxal olunan yüngül sənaye malların qiymətlərində də təsiredici azalmanı təhrik etdi) təsir etmişdir.

Aşağıdakı cədvəl 1 göstərir ki, 2019-2023-cü illər müddətində geyim istehsalı üzrə əsas məhsul növləri üzrə ümumi artım müşahidə olunmuşdur. Belə ki, corab məmulatları, istehsalat və peşə komplektləri, üst və alt geyimləri üzrə istehsal göstərilən müddətdə müvafiq olaraq 1.6, 3.6, 2.0, və 1.3 dəfə çox olmuşdur.

Cədvəl 1.

Geyim istehsalı ilə məşğul olan müəssisələrin işinin əsas göstəriciləri

	2019	**2020**	**2021**	**2022**	**2023**
Trikotaj corab məmulatları, min cüt	2367.8	3248.9	2993.0	3078.7	3752.8
İstehsalat və peşə komplektləri, min ədəd	634.7	653.6	1880.2	1222.0	2305.1
Üst geyim, min ədəd	469.9	521.5	765.4	863.6	946.9
Alt geyim, min ədəd	597.4	556.3	529.8	560.8	796.8

Mənbə:https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/industry_2024.zip

Azərbaycanda yüngül sənaye məhsullarının istehsalında ən mühüm problemlərdən biri böyük investisiya tələbatı hesab oluna bilər: belə ki, istehsal güclərinin 70 % -dən çoxu köhnəlib.Tədqiqatımızın göstərdiyi kimi, milli istehsalçılar hər il bazarda öz rəqabət qabiliyyətlərini itirirlər: bu gün onların payı 17 %-dən çox deyil, baxmayaraq ki, bəzi sənaye sahələrində, məsələn, ayaqqabı sənayesində hələ də 70%-dən çoxdur. Eyni zamanda, yüngül sənaye məhsullarının bazarı dünyada ən sürətlə inkişaf edən bazarlardan biridir və illik artım sürəti ən azı 12% təşkil edir . Bu illik artım - əsasən Türkiyə, Çin, Pakistan və digər ölkələrin uzun illərdir bu ölkələrin yüngül sənaye istehsalçılarına məqsədyönlü dövlət dəstəyi hesabına həyata keçirilir. Bununla belə, Azərbaycanda istehsalın böyüməsi və inkişafı üçün əsas şərtlər ən yaxşılardandır: bunlar enerji resurslarının və əməyin nisbi ucuzluğu, istehsal ənənələridir.

Bütövlükdə, respublikanın yüngül sənaye sahəsində çalışan bütün sahibkarlar Azərbaycan istehsalçılarına dövlət dəstəyinin zəruriliyi vacib hesab edirlər. Ölkədə son illərdə lazımi investisiya və biznes mühiti yaransa da, bu günə qədər yüngül sənaye dövlət tərəfindən perspektivli sahə kimi hələ də kifayət qədər dəstəklənmir.

Son on ildə yüngül sənayedə vəziyyət biznes mühiti şəraitində prinsipcə əlverişsiz inkişaf etmişdir ki, bunun da nəticəsində bəzi yerli müəssisələr fəaliyyətini dayandırmalı olmuşdur. Lakin bəzi müəssisələrdə, onlar xammal və materialla təmin olunur, müvafiq olaraq ayaqqabı və paltar istehsal edilir. Həmin məhsullar xaricə göndərilir. Müəssisələr xammalın və hazır məhsulun sahibi kimi. Bunun nəticəsidir ki, son üç ildə yüngül sənaye müəssisələrində istehsalda müəyyən artıma nail olublar.

Qeyd etmək lazımdır ki, bu istehsal üsulu yerli müəssisələrin məcburi güzəştidir ki, bu da müəssisələrin likvidliyini qoruyub saxlaması üçün vacib amildir.

Sənaye müəssisələrinin maddi-texniki bazasının səviyyəsini qiymətləndirərkən qeyd etmək olar ki, 2022-ci ildə toxuculuq və trikotaj sənayesi müəssisələri tərəfindən istehsal xərclərinin ümumi strukturunda əsas fondların köhnəlməsi üçün ayrılmış vəsaitlər müvafiq olaraq 32,9% və 3,0% təşkil edib. Bütövlükdə sənaye üzrə sənaye göstəricilərindən göründüyü kimi, toxuculuq sənayesində bu göstərici xeyli yüksəkdir - təxminən 2,5 dəfə, bu, bəhs olunan sənayedə istifadə olunan avadanlıqların əhəmiyyətli dərəcədə köhnəldiyini göstərir[6].

İqtisadi islahatların başlanması ilə hökumət yüngül sənayesini tam dəstəkləyə bilmədi, bunun nəticəsində Azərbaycanda ayaqqabı və geyim müəssisələrinin 60 % -dən çoxu istehsalı saxlamaq üçün birgə sxem üzrə işləməyə məcbur oldu, iş yerləri yüksək ixtisaslı işçilərə yüksək maaşlar verirlər.

Vəziyyəti təhlil etsək, artım probleminin olduğunu söyləyə bilərik. Tollinq əməliyyatları üzrə ədv bizi bu təşəbbüsün vaxtında olması barədə düşünməyə vadar edir. Birincisi, xarici istehsalçılar, bizim bazarda sifariş verənlər yerli müəssisələrlə əməkdaşlıqdan imtina edə bilər, ikincisi, milli istehsalçılar satış bazarını itirə bilərlər. Azərbaycanın ÜTT-yə üzvlüyünə hazırlıq çərçivəsində bu nəticələr arzuolunmaz hesab edilir. Azərbaycan istehsalçılarının əsas məqsədləri arasında xarici sərmayədarları cəlb etmək olsa da, hələki milli istehsalçılar gəlirli sifarişlərdən məhrumdurlar, xarici biznes isə

[6] Azərbaycan sənayesi, statistik məcmuə, 2023-ci il, s.44-45.

yüngül sənaye məhsulunun istehsalına maraq göstərmir. Eyni zamanda, müəssisələrin rəqəbətqabiliyyətini mümkün edən əhəmiyyətli bir amil odur ki, istehsal olunan yerli toxuculuq və trikotaj məmulatları daxili bazarda ən aşağı qiymət səviyyəsində satılır.

Birgə əməkdaşlıq əməliyyatları sayəsində, şirkətlər yeni istehsal texnologiyalarına giriş imkanı qazandılar. Xarici tərəfdaşların yeni texnologiyalarını qəbul edərək və onların "müalicə malı" təchizatçıları ilə əməkdaşlıq edərək, azərbaycanda istehsalçılar məhsullarını keyfiyyət xüsusiyyətləri üzrə yaxşılaşdırırlar və nəticədə o, xarici məhsullardan praktiki olaraq fərq göstərmir.

Araşdırmalar göstərdi ki, iqtisadi strukturun və xüsusilə də yüngül sənaye sahəsinin dəyişdirilməsinin səmərəli yollarından biri klasterləşmədir. İqtisadi təşkilatlarda innovativ mühit formalaşdırılması ilə əlaqədar olan institusional aspektlərin inkişafı özlüyündə vacib dəyər kəsb edir. Çoxsaylı və genişmiqyaslı bir proses olan sənaye tənzimlənməsi, mütəxəssislərin çoxluğu tərəfindən sahələrarası dəyişikliklərlə əlaqələndirilir, amma bizim fikrimizə görə bu, yüngül sənaye strukturlarının modernləşdirilməsi kimi çoxşahəli və genişmiqyaslı bir prosesin məhdud təsviri olaraq qalır. Bu prosesin məzmununa aid olan müəllifin yanaşması cədvəl 2-də təqdim edilir.

Cədvəl 2.

Yüngül sənayesində yeniləşmənin əsas növlərin təsnifatı

Prosesin xüsusiyyətləri	Yeniləşmənin təsnifatı
Kompleks	Modernləşdirmənin vahid zəncirin bir həlqəsində baş verən struktur dönüşün onun digər həlqələrində struktur dəyişikliklərə mütləq təsir edəcəyi sistemli xarakterindən irəli gəlir.
Fasiləsiz	Sənaye kompleksi mühitinin mobilliyi və dinamikliyi ilə müəyyən olunur
Məqsədyönlü	Əsas direktivlər və modernləşdirmə tədbirlərinin təyinatı ilə şərtlənir. Sənayenin təşkilati strukturunun modernləşdirilməsi kiçik, orta və böyük təsərrüfat obyektləri arasında ən optimal nisbət və əlaqənin müəyyən edilməsini nəzərdə tutur, yəni ən səmərəli təşkilati-institusional proporsiyaların müəyyənləşdirilməsini əhatə edir.

Mənbə: *cədvəl müəllif tərəfindən tərtib olunub*.

Struktur modernizasiyanın həyata keçirilməsi bir neçə əsas mərhələdən ibarətdir:

- Birinci mərhələdə struktur tədbirlərinin məqsəd və tapşırıqları müəyyənləşdirilir;
- İkinci mərhələdə sənaye sahələrinin rəqabət qabiliyyəti dəyərləndirilir və sənaye istehsalının texnoloji səviyyəsi qiymətləndirilir;
- Üçüncü mərhələdə perspektivli strategiyalar hazırlanır və sənaye müəssisələrinin restrukturizasiyası həyata keçirilir;
- Dördüncü mərhələdə modernizasiya tədbirlərinin nəticələri cəmləşdirilir və qiymətləndirilir.

Bu geniş və çoxşaxəli prosesin yalnız məhdud şəkildə müəyyən edilməsi isə ictimai siyasətin mürəkkəbliyini artırır. Struktur-innovasiya siyasəti obyektiv olaraq fəaliyyət növləri və sahələrarası münasibətləri, istehsalçılar və istehlakçılar arasındakı əlaqələri, eləcə də müxtəlif institutlarla qarşılıqlı əlaqələri əhatə edir. Bu istiqamətdə əsas vəzifələr aşağıdakılardan ibarətdir:

- Yüngül sənaye təsərrüfat subyektlərinin texniki-texnoloji bazasının müasirləşdirilməsi və beynəlxalq keyfiyyət standartlarına cavab verən istehsal həcmində artımın təmin edilməsi;
- Mövcud sahələrin sənaye bazarında aparıcı istehsalçılarla inteqrasiyasının təşkili;
- Azərbaycanın yüngül sənayesi müəssisələri arasında səmərəli əməkdaşlığın qurulması;
- Dövlət sifarişlərinin yerinə yetirilməsi və respublika tenderlərində iştirak vasitəsilə yüngül sənaye mallarına olan dövlət tələbatının ödənilməsi;
- Yüngül sənaye təsərrüfat subyektlərinin innovativ fəaliyyətinin stimullaşdırılması;
- Mövcud iş yerlərinin qorunması və yeni iş yerlərinin yaradılması;
- Təsərrüfat subyektlərinin maliyyə vəziyyətinin yaxşılaşdırılması və büdcəyə, eləcə də büdcədənkənar fondlara daxilolmaların artırılması.

Hesab edirik ki, bu məqsəd və vəzifələrin həyata keçirilməsi

istehsal, texniki, sosial, maliyyə, iqtisadi və digər sahələri əhatə edən qarşılıqlı əlaqəli tədbirlər kompleksinin təşkilini tələb edir.

Azərbaycanın yüngül sənayesinin inkişafına yönəlmiş davam edən proqram tədbirlərinin səmərəliliyi əsasən ictimai xarakter daşıyır və güzəştli kreditləşmə sayəsində bu sənayedə müəssisələrin inkişafına yönəlmiş tədbirlər vasitəsilə sosial gərginliyin azaldılmasında (o cümlədən işsizlərə müavinətlərin ödənilməsinə dair sosial məsuliyyətin azaldılmasında) ifadə olunur.

Yüngül sənaye müəssisələrinin əksəriyyəti regionlarda strateji əhəmiyyət kəsb edir, ona görə də bu sənayenin müəssisələrində əsasən qadınların çalışdığı şəraitdə iş yerlərinin qorunması və yenilərinin yaradılması xüsusi əhəmiyyət kəsb edir. Bu tədbirlər sənayedə işləyən işçilərin sayını saxlamağa kömək edə bilər.

İnnovasiyaların, enerji ehtiyatlarına qənaət edən texnologiyaların tətbiqi müəssisələrin işçiləri üçün ekoloji təmiz şərait və ekoloji mühit yaradılmalıdır.

Yüngül sənayedə innovasiyaların intensivləşdirilməsi üçün, fikrimizcə, aşağıdakı tədbirlərin həyata keçirilməsi vacib hesab edilə bilər:

- Müəssisələrin innovativ fəallığını artırmaq məqsədilə dövlət tərəfindən hazırlanmış normativ-hüquqi bazanın təkmilləşdirilməsi;
- İnnovasiya fəaliyyəti ilə məşğul olan müəssisələrə iqtisadi dəstəyin göstərilməsi;
- Regionlarda innovasiya təşəbbüslərinə yardımın gücləndirilməsi;
- İnnovasiya sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi.

Eyni zamanda innovasiya fəaliyyətini təkmilləşdirmək üçün elmi-tədqiqat institutlarının olması zəruridir. Yüngül sənayedə mövcud vəziyyətin səciyyəsi iqtisadiyyatın yüngül sənaye sektorunun artımında əks etdirir.

Bəzi problemlər vardır ki, onlar sənayedə iqtisadi artıma mənfi təsir göstərir və təcili həllini tələb edir. Əsas problemlərə aşağıdakıları aid etmək olar:

1. Yüngül sənayenin texnoloji səviyyəsi inkişaf etmiş ölkələrin

standartlarından geri qalır;

2. Yüksək istehsal xərcləri, xüsusilə də enerji və əmək tutumunun yüksəkliyi istehsalın maya dəyərini artırır;

3. Keyfiyyətsiz və ucuz kütləvi istehlak mallarının bazarda geniş yayılması yüksək dəbli və rəqabətədavamlı məhsulların çatışmazlığına səbəb olur;

4. Toxuculuq məhsulları sahəsində beynəlxalq bazarlarda güclü rəqabət mövcuddur;

5. İdxalın yüksək payı xammal siyasətində xarici asılılığı dərinləşdirir və bu, yerli istehsalçılar üçün risk yaradır;

6. Sənaye üzrə innovasiya və investisiya aktivliyi aşağı səviyyədədir;

7. Yerli məhsulların rəqabət qabiliyyəti zəifdir, trikotaj və toxuculuq sahələrində "know-how" texnologiyalarının tətbiqi demək olar ki, müşahidə olunmur;

8. Peşəkar kadr çatışmazlığı problemi mövcuddur: texniki işçilər, menecerlər və digər ixtisaslı əmək resursları sahədə yetərincə təmin olunmayıb.

Qeyd etmək lazımdır ki, müasir şəraitdə Azərbaycanda yüngül sənaye mallarının istehsalı üçün zəngin xammal bazası vardır və eyni zamanda ondan daha səmərəli istifadə oluna bilər.

Yüngül sənayenin yenilənməsi və modernləşdirilməsi üçün istehsalatın investisiya cəlbediciliyinin artırılması zəruridir. Bu baxımdan, müvafiq normativ-hüquqi mühitin formalaşdırılması və hüquqi mexanizmlərin təkmilləşdirilməsi əsas rol oynayır. Qeyd olunmalıdır ki, bu sektorda maliyyə vəsaitlərinin dövriyyəsinin sürətli olması (2-3 dəfəlik illik dövriyyə) yüngül sənayeni investisiya üçün sərfəli sahəyə çevirir. Sənayenin inkişafına dəstək məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

- istehsalda istifadə olunan, lakin ölkədə istehsal olunmayan yüksək məhsuldar texnoloji avadanlıqlar üçün gömrük rüsumlarının azaldılması;
- yerli istehsalda istifadə olunan xammal və materiallara tətbiq edilən gömrük tariflərinin optimallaşdırılması;
- yeni texnologiyaların tətbiqinə yönəlmiş təşəbbüslərin dövlət proqramlarına daxil edilməsi;

- qeyri-qanuni idxal və qeyri-leqal istehsalla mübarizəyə dair hüquqi mexanizmlərin gücləndirilməsi;
- xammal təminatının və texnoloji müstəqilliyin artırılmasına yönəlmiş fəaliyyətlərin intensivləşdirilməsi.

Öz növbəsində, bu sənayenin inkişafı, şübhəsiz ki, məhsulların keyfiyyətinin yüksəldilməsini tələb edir. Fikrimizcə, məhsulların keyfiyyəti daha çox məhsulun ən mühüm vahidi kimi materialların qablaşdırmasının, onun bir sıra hissələrinin, xüsusən də rəfin ölçü sabitliyindən asılıdır. Rəf paketinin ölçülü sabitliyi müxtəlif yollarla, ilk növbədə dizaynın, materialların və emalın müvafiq seçimi ilə əldə edilir. Bu amillərin hər birinin optimal istifadəsi ilə yalnız ölçülü sabitliyin artmasına deyil, həm də məhdud resurslar şəraitində vacib olan istehsal üçün material və əmək xərclərinin azalmasına nail olmaq olar.

Azərbaycan iqtisadiyyatının diversifikasiyası və neft-qaz asılılığının azaldılması strategiyası yüngül sənayenin, xüsusən toxuculuq sektorunun inkişafına yönəlmişdir. Bu sahənin davamlı inkişafı kompleks yanaşma, dövlət dəstəyi, innovativ texnologiyaların tətbiqi və insan kapitalının gücləndirilməsi ilə mümkündür. Xammal təminatında kənd təsərrüfatının rolu böyükdür və aqrar-sənaye sinerjisini gücləndirmək üçün istehsal həcmi ilə yanaşı, keyfiyyətin beynəlxalq standartlara uyğunlaşdırılması vacibdir.

Yüngül sənayenin rəqabət qabiliyyətinin artırılması məqsədilə vergi güzəştləri, güzəştli kreditlər, yerli brendlərin təşviqi, risk kapitalı və qrantların verilməsi kimi maliyyə alətləri tətbiq olunmalı, daxili bazar haqsız rəqabətdən qorunmalı, məhsulların keyfiyyəti və sertifikasiyası təmin edilməlidir. Xüsusi iqtisadi zonalar və inkişaf etmiş infrastrukturun yaradılması, maliyyə resurslarına çıxışın asanlaşdırılması, innovasiyaların təşviqi və peşə təhsilinin gücləndirilməsi sektorun inkişafını dəstəkləyəcəkdir.

Kiçik müəssisələrin dəstəklənməsi, tədqiqat və beynəlxalq tərəfdaşlıqların inkişafı, qabaqcıl texnologiyaların tətbiqi sənayenin modernləşdirilməsinin əsas istiqamətlərindəndir. Azərbaycan yüngül sənayesinin davamlı inkişafı üçün dövlət siyasəti və müəssisələrin fəallığını birləşdirən vahid modernləşdirici idarəetmə modeli formalaşdırılmalı və qlobal iqtisadi meyllər nəzərə alınmalıdır.

Bununla yanaşı, postsovet dövrünün mirası olan renta axtarışı, dövlət asılılığı, qeyri-bərabər rəqabət və kölgə iqtisadiyyatı kimi maneələrin aradan qaldırılması, şəffaf və səmərəli bazar institutlarının inkişaf etdirilməsi sektorun rəqabət qabiliyyətini artırmaq üçün zəruridir.

Dissertasiya işinin "**Yüngül sənayenin iqtisadi tənzimlənmə mexanizmləri və idarəetmə modelinin formalaşması**" adlı III-ci fəslində yüngül sənaye sektorunda inkişaf meylləri; Sənaye məhsullarının iqtisadi tənzimlənməsi: qiymət formalaşması, bazar mexanizmləri və ixrac siyasəti; Azərbaycanın yüngül sənaye müəssisələrində təşkilati proseslərin modelləşdirilməsi və yüngül sənaye müəssisələrində biznes-proseslərin optimallıq modellərindən istifadə kimi məsələlər tədqiq olunmuşdur.

Yüngül sənaye - *toxuculuq, geyim, ayaqqabı, dəri məmulatları və ümumi istehlak üçün nəzərdə tutulmuş digər malların istehsalı ilə məşğul olan* sənaye sahəsidir. Tədqiqatlar göstərir ki, hazırda qlobal yüngül sənaye sektorunda onun gələcək inkişaf trayektoriyasını müəyyənləşdirən bir sıra əsas meyllər formalaşmaqdadır.

Birinci meyl - ekoloji davamlılıq prinsipidir. Son dövrlərdə istehlakçılar arasında ətraf mühitə zərər vurmayan məhsullara olan tələbat əhəmiyyətli dərəcədə artmaqdadır. Bu tendensiya sənaye müəssisələrini daha *"yaşıl" texnologiyalar*, *üzvi parça və bioloji parçalana bilən materiallar* tətbiq etməyə sövq edir. Eyni zamanda, *bərpa olunan enerji mənbələri*ndən istifadəyə keçid, istehsal prosesində enerji sərfiyyatının və tullantıların azaldılması kimi yanaşmalar da əhəmiyyət qazanır.

İkinci meyl - istehsal proseslərinin avtomatlaşdırılması ilə bağlıdır. Müasir texnologiyaların tətbiqi nəticəsində bir çox müəssisələr istehsalda *robotlaşdırılmış sistemlərdən* istifadə edir ki, bu da həm işçi qüvvəsi xərclərini azaldır, həm də məhsuldarlığı artırır. Avtomatlaşdırma eyni zamanda istehsalın keyfiyyətinə nəzarət imkanlarını da genişləndirərək, *qüsurların sayını minimuma endirməyə* şərait yaradır.


Üçüncü meyl - məhsulların fərdiləşdirilməsi istiqamətində müşahidə olunur. Müasir dövrdə istehlakçılar daha çox *fərdi ehtiyac və zövqlərə uyğunlaşdırılmış məhsullar* almağa üstünlük verirlər. Bu

məqsədlə bir sıra şirkətlər *fərdi ölçülərlə sifariş imkanı*, eləcə də *şəxsi dizayn və çap əlavələri* təklif edir ki, bu da sənayenin fərdiləşdirilmiş istehsal yönümünü artırır.

*Dördüncü meyl - elektron ticarətin genişlənməsi*dir. Onlayn platformaların inkişafı yüngül sənaye məhsullarının satışında yeni imkanlar yaradaraq, istehsalçılara qlobal bazarlara çıxış imkanı verir. Eyni zamanda *e-ticarət vasitəsilə müştəri rəylərinin toplanması*, bazar dəyişikliklərinə *operativ reaksiya verilməsi* və satış proseslərinin optimallaşdırılması mümkün olur.

Nəhayət, beşinci meyl - yeni material və texnologiyaların tətbiqidir. Yüngül sənaye sahəsində *innovativ tekstil materialları*, o cümlədən *nəmə və küləyə davamlı* membran parçalar, yüksək dayanıqlı saplar, ağıllı tekstil və digər texnoloji yeniliklər məhsulun funksionallığını və rəqabətqabiliyyətini artırır. Bu cür materialların tətbiqi həm məhsul keyfiyyətinə, həm də istehlakçıların məmnunluğuna bilavasitə təsir göstərir.

Aparılan təhlillər bir daha təsdiqləyir ki, yüngül sənaye sektoru geniş çeşiddə istehlak və sənaye malları istehsal etmək iqtidarında olan əhəmiyyətli istehsal potensialına malikdir (sxem 2).



Sxem 2. Dünya yüngül sənayesinin istehsalçı ölkələr üzrə strukturu
Mənbə: *müəllif tərəfindən tərtib edilib.*

ABŞ, Avropa və Yaponiyada yüngül sənaye iqtisadiyyatın mühüm və yüksək inkişaf etmiş sahələrindəndir. ABŞ-da Nike, Adidas, Levi's, Ralph Lauren, Calvin Klein kimi brendlər yüksək keyfiyyət, innovativ texnologiyalar və güclü marketinq strategiyaları ilə qlobal nüfuz qazanıblar. Avropada Zara, H&M, Gucci, Prada kimi brendlərlə yanaşı, tekstil və məişət əşyalarının istehsalında ixtisaslaşmış kiçik, unikal və yüksək keyfiyyətli məhsullar təqdim edən müəssisələr də geniş yayılıb. Yaponiyada isə yüngül sənaye sektorunu yüksək keyfiyyət, texnoloji yeniliklər və unikal dizayn fərqləndirir; burada Uniqlo, Onitsuka Tiger, Comme des Garçons kimi markalar xüsusilə seçilir.

Yüngül sənaye Çin iqtisadiyyatının ən böyük sahələrindən biridir. Ölkənin çoxsaylı geyim, ayaqqabı və tekstil istehsalçıları məhsullarını dünyanın müxtəlif bazarlarına ixrac edir. Bununla belə, bəzi Çin şirkətləri hələ də məhsul keyfiyyəti və əmək şəraiti ilə bağlı problemlərlə üzləşirlər.

Tədqiqatlar göstərir ki, yüngül sənaye müəssisələrinin yerləşməsi bir sıra əsas amillərlə – ehtiyatların mövcudluğu, infrastruktur, bazarların yaxınlığı və vergi rejimi ilə şərtlənir.

- Ehtiyatların mövcudluğu: Xammal, su, elektrik enerjisi və işçi qüvvəsinə əlçatanlıq müəssisələrin yerləşməsi üçün mühüm rol oynayır. Resurslara yaxınlıq daşıma xərclərini azaldır və istehsalın səmərəliliyini artırır.
- İnfrastruktur: Yerləşmə qərarlarında yol, dəmir yolu, liman və texnoloji imkanlar kimi infrastruktur amilləri həlledici əhəmiyyət daşıyır. İnkişaf etmiş infrastruktur məhsul dövriyyəsini və istehsal prosesini sürətləndirir.
- Bazarların mövcudluğu: Yaxın bazarlara çıxış müəssisənin iqtisadi səmərəliliyinə birbaşa təsir edir. Bazar araşdırmaları və potensial alıcı bazasının təhlili yerləşmə qərarının əsasını təşkil etməlidir.
- Vergi rejimi: Müəssisələrin gəlirliliyi və inkişaf imkanları vergi mühitindən asılıdır. Əlverişli vergi şəraiti və güzəştlər istehsalın və ixracın genişlənməsini stimullaşdıra bilər.

Cədvəl 3-də göstərilir ki, toxuculuq sənayesi istehsalı son bir neçə il ərzində artmışdır. 2021-ci ilə qədər bu sənayənin payı artarkən, sonrakı ildə azalmışdır.

Cədvəl 3.

Azərbaycnda yüngül sənayenin istehsal dinamikası (mln. manatla)

	2019	2020	2021	2022	2023
Toxuculuq sənayesi	182.3	248.3	304.3	240.9	369.5
Geyim istehsalı	104.0	103.6	111.7	112.8	130.0
Dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı	18.0	26.1	21.8	25.8	22.3

Mənbə: https://www.unido.org/sites/default/files/files/2021-11/IDR%202022%20-%20EBOOK.pdf

Geyim istehsalı sahəsində son illərdə nəzərəçarpacaq artım müşahidə olunmasa da, artım dinamikası sabit qalıb və 2019-cu illə müqayisədə 2023-cü ildə istehsal həcmi 25% artıb. Bu, geyim istehsalı müəssisələrinin ölkə daxilində sabit fəaliyyətini əks etdirir. Dəri, dəridən məmulatlar və ayaqqabı istehsalı sahəsində isə istehsal mövqeyində müəyyən çətinliklər mövcuddur və statistik göstəricilər son illərdə bu sahədə istehsal həcminin dəyişkənliyini nümayiş etdirir. Ümumilikdə, cədvəlin məlumatları Azərbaycanda toxuculuq və geyim sənayesinin nisbətən sabit inkişaf etdiyini, dəri və ayaqqabı istehsalı sahəsində isə yeni inkişaf imkanlarının formalaşdığını göstərir.

Azərbaycanda toxuculuq və yüngül sənaye sahələrinin inkişafı investisiya dinamikası və dövlət dəstəyi tədbirləri ilə sıx bağlıdır. Məlumatlar göstərir ki, 2019-cu ildə toxuculuq sektoruna qoyulan ümumi investisiyalar cəmi 5,9 milyon manat təşkil etmiş, lakin 2020-ci ildə bu göstərici sürətlə artaraq 42,9 milyon manata çatmış, ardınca 88,3 milyon manatla maksimum səviyyəyə yüksəlmişdir (cədvəl 4).

Cədvəl 4.

Yüngül sənayedə əsas kapitala qoyulan investisiyalar (faktiki qiymətlərlə), mln.manat

	2019	2020	2021	2022	2023
Toxuculuq sənayesi	88.3	15.4	25.3	23.3	25.3
Geyim istehsalı	20.0	26.5	26.9	25.5	26.9
Dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı	0.7	0.3	0.2	- 0.5	0.2

Mənbə: https://stat.gov.az/source/industry/az/014_5.xls

Pambıqçılıq sahəsində dövlət siyasəti əsas kapital qoyuluşu, texnologiyaların yenilənməsi, keyfiyyətin artırılması və ixrac imkanlarının genişləndirilməsi istiqamətlərinə yönəlmişdir. Dövlət pambıqçılığın inkişafını lizinq, subsidiya və güzəştli kredit mexanizmləri, assosiasiyaların dəstəklənməsi və elmi təminatın gücləndirilməsi ilə təşviq edir.

Yüngül sənaye müəssisələrinin inkişafında əsas prioritetlər aşağıdakılardır:

- dövriyyə vəsaitlərinin artırılması və kredit imkanlarının genişləndirilməsi;
- azad rəqabət mühitinin formalaşdırılması və inhisarçı strukturların aradan qaldırılması;
- xammal təminatının stimullaşdırılması (yun, pambıq lifi və s.);
- texniki modernləşdirmə və sürətləndirilmiş amortizasiya imkanlarının tətbiqi;
- az gəlirli müəssisələrin subsidiyalaşdırılması və dövlət dəstəyi mexanizmlərinin gücləndirilməsi;
- elmi-tədqiqat fəaliyyətinin səmərəliliyinin artırılması və innovasiyaların stimullaşdırılması;
- kiçik biznesin inkişaf etdirilməsi və investisiya cəlbediciliyinin artırılması.

Qlobal kontekstdə yüngül sənayenin inkişafına təsir edən başlıca tendensiyalar isə bunlardır:

- ekoloji davamlılıq: istehsalda ekoloji cəhətdən təmiz materiallardan istifadə və tullantıların azaldılması;
- istehsalın avtomatlaşdırılması: robotlaşdırılmış sistemlər vasitəsilə məhsuldarlığın artırılması və istehsal xərclərinin azaldılması;
- fərdiləşdirilmiş məhsullar: fərdi sifariş və unikal dizayn imkanlarının genişləndirilməsi;
- elektron ticarət**:** onlayn satış kanalları vasitəsilə bazar genişlənməsi;
- yeni material və texnologiyalar: funksionallığı artıran və ətraf mühitə təsiri azaldan texnologiyaların tətbiqi.

Beləliklə, yüngül sənayenin inkişafı yalnız iqtisadi amillərlə deyil, sosial, texnoloji və ekoloji amillərlə də müəyyən olunur. Sektorun

davamlı inkişafı üçün dövlət dəstəyi ilə yanaşı, müəssisələrin innovasiya yönümlü fəaliyyətinin və bazar mexanizmlərinə uyğunlaşmasının gücləndirilməsi vacibdir.

Yüngül sənaye dünyanın bir çox ölkələrinin iqtisadiyyatında mühüm rol oynayır. Bu sahə əsasən geyim, ayaqqabı, tekstil və digər məişət əşyaları kimi istehlak mallarının istehsalı ilə xarakterizə olunur. Müxtəlif ölkələrin təcrübəsi yüngül sənayenin inkişaf modelində həm ortaq cəhətləri, həm də fərqli xüsusiyyətləri nümayiş etdirir.

ABŞ-da yüngül sənaye iqtisadiyyatın ən inkişaf etmiş sahələrindən biridir. Nike, Levi's, Ralph Lauren və Calvin Klein kimi qlobal brendlər yüksək keyfiyyət, innovativ texnologiyalar və güclü marketinq strategiyaları sayəsində dünyada yüksək nüfuza malikdirlər.


Avropa ölkələrində yüngül sənaye həm iri brendlərin (Zara, H&M, Gucci, Prada), həm də kiçik, yüksək keyfiyyətli məhsullar üzrə ixtisaslaşmış müəssisələrin fəaliyyəti ilə seçilir. Sektor rəqabətli bazar mühiti və innovasiyalara açıq olması ilə fərqlənir.

Yaponiya yüngül sənayesində Uniqlo, Onitsuka Tiger və Comme des Garcons kimi markalar innovativ texnologiyalar, unikal dizayn və yüksək keyfiyyət amilləri ilə tanınır.

Çin yüngül sənayesi istehsal miqyasına görə lider mövqedədir və məhsullarını qlobal bazarlara ixrac edir. Lakin bəzi şirkətlər hələ də məhsul keyfiyyəti və əmək şəraiti ilə bağlı problemlərlə qarşılaşır.

Qeyd etmək lazımdır ki, qlobal yüngül sənayedə istehsalın təmərküzləşməsi və iri müəssisələrin üstünlüyü artmaqdadır. Bu, toxuculuq, ayaqqabı və dəri sənayesində sənaye inteqrasiyası və konsolidasiya proseslərini gücləndirir, nəticədə əmək məhsuldarlığı artır, vahid məsrəflər azalır və yüksək məhsuldar avadanlıqlardan istifadə genişlənir.

Azərbaycanın yüngül sənaye istehsalı da müəyyən inkişaf dinamikası nümayiş etdirir. Belə ki, 2017-2021-ci illər ərzində pambıq parçaların istehsalı 49% artaraq 2021-ci ildə 33 918,9 min kv.m-ə çatmışdır. Trikotaj corab istehsalı isə eyni dövrdə 64,6% artaraq 2021-ci ildə 3 248,9 min cüt olmuşdur. Geyim istehsalı sahəsində artım templəri nisbətən sabit qalsa da, ümumi sektoral stabillik qorunub saxlanılmışdır (qrafik 2).



	2017	2018	2019	2020	2021	2022	2023
Pambıq parçalar, min kv.metr	16830,2	19314,4	21098,0	29965,5	33918,9	22531,5	28652,3
İpək parçalar, min kv.metr	274,5	40,7	103,2	0,0	69,8	181,8	322,8
Pambıq yataq ağları, min ədəd	371,6	580,7	610,5	268,1	350,9	45,7	73,3
Pambıq iplik, min ton	17,3	24,7	34,8	11,7	22,5	14,1	13,0
Xalça, min kv.metr	0,4	2,4	3,0	1,3	13,0	5,6	3,5
Corab məmulatları, min cüt	1991,0	2367,8	3248,9	2993,0	3078,7	3752,8	4222,5
Üst geyim, min ədəd	629,3	469,9	521,5	765,4	863,6	946,9	683,2
Alt geyim, min ədəd	653,1	597,4	556,3	529,8	560,8	796,8	940,6
Ayaqqabı, min cüt	150,0	186,6	190,3	544,2	1214,0	1405,0	749,7
Emal edilmiş dəri, min kv. metr	32,1	53,9	53,5	65,2	60,2	55,4	64,1

Qrafik 2. Azərbaycanda yüngül sənayedə buraxılan məhsulların dinamikası (faktiki qiymətlərlə)

Mənbə: https://www.unido.org/sites/default/files/files/2021-11/IDR%202022%20-%20EBOOK.pdf

Ümumiyyətlə, yüngül sənaye üzrə xarici təcrübənin öyrənilməsi bu sahədə milli inkişaf strategiyalarının hazırlanması və müəssisələrin rəqabət qabiliyyətinin gücləndirilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

XX əsrin sonlarında Azərbaycan ərazisində yüngül sənayenin

inkişafında mühüm rol oynamış iri sənaye müəssisələri fəaliyyət göstərirdi. Bunlara pambıqtəmizləmə zavodları, Şəki və Xankəndi ipək və toxuculuq fabrikləri, Bakının tikiş, dəri və ayaqqabı müəssisələri, Mingəçevirin kəndir və parça fabrikləri, eləcə də Sumqayıt, Gəncə, Naxçıvan və digər şəhərlərdəki trikotaj və geyim müəssisələri daxil idi. Lakin özəlləşdirmə prosesi gözlənilən müsbət nəticələri tam vermədi; yeni sahiblər aktivləri tez-tez əsas fəaliyyət sahəsindən kənar məqsədlər üçün istifadə etdilər.

Müasir mərhələdə yüngül sənaye qarşısında duran əsas vəzifələr texnoloji avadanlığın modernləşdirilməsi, istehsal və keyfiyyətə nəzarət sistemlərinin təkmilləşdirilməsi, ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqi və işçi heyətin müasir texnologiyalara uyğunlaşdırılmasıdır. Bazarın tələbləri ekoloji məsuliyyət, tullantıların təkrar emalı və davamlı materialların istifadəsini zəruri edir. Eyni zamanda, korporativ sosial məsuliyyət də müəssisələrin nüfuzunu və rəqabət qabiliyyətini artıran vacib amildir.

Azərbaycan hökuməti yüngül sənayenin inkişafını dəstəkləməyə davam etməli, investisiya cəlbini stimullaşdırmalı və ixrac potensialını artırmalıdır. Öz növbəsində, sənaye müəssisələri məhsulun keyfiyyətinin artırılması, bazar tələblərinə uyğunlaşma və sosial məsuliyyət daşımaq sahəsində fəaliyyətlərini gücləndirməlidirlər. Yalnız dövlət dəstəyi və müəssisələrin fəal iştirakı sayəsində davamlı və rəqabətqabiliyyətli inkişaf təmin edilə bilər.

Toxuculuq sənayesinin əsas xammalı pambıq olmaqla, pambıqçılıq sektoru mühüm strateji əhəmiyyət kəsb edir. Bu məqsədlə 11 may 2010-cu ildə qəbul edilən "Pambıqçılıq haqqında" Azərbaycan Respublikası Qanunu pambıqçılığın inkişafı, texnika və texnologiyaların tətbiqi, məhsul keyfiyyətinin yüksəldilməsi, ixracın artırılması və sahənin elmi təminatının yaxşılaşdırılması istiqamətlərini müəyyən etmişdir. Qanun aşağıdakı əsas vəzifələri ehtiva edir:

- pambıqçılıq üzrə normativ-hüquqi aktların və dövlət proqramlarının qəbul edilməsi;
- pambıq və məhsullarının istehsalı, emalı və dövriyyəsinə dair texniki normativlərin və standartların təsdiqi;
- pambıq bazarının öyrənilməsi və inkişaf istiqamətlərinin

müəyyənləşdirilməsi;

- aqrotexniki və texnoloji normaların tətbiqinə nəzarət;
- toxumluq pambıq istehsalı və dövriyyəsinə nəzarət;
- sahə üzrə mütəxəssis hazırlığı və elmi təminatın maliyyələşdirilməsi.

Dissertasiya işinin "**Azərbaycan respublikasında yüngül sənayenin səmərəli idarəedilməsi**" adlı IV-ci fəslində Yüngül sənaye siyasətində milli prioritetlərin müəyyənləşdirilməsi və strateji hədəflər; İdarəetmə sisteminin təkmilləşdirilməsi və institusional yanaşmalar və İqtisadi mexanizmlərin təkmilləşdirilməsi və stimullaşdırma vasitələri kimi məsələlər tədqiq olunub.


Yüngül sənaye bir çox ölkələrin iqtisadiyyatında mühüm rol oynayaraq, əmək bazarına, kapital dövriyyəsinə və digər sənaye sahələri ilə əlaqələrə ciddi təsir göstərir. Bu sahə maşınqayırma, kənd təsərrüfatı, kimya sənayesi, maliyyə, təhsil və nəqliyyat kimi sahələrlə sıx qarşılıqlı fəaliyyət göstərir. Yüngül sənaye az kapital qoyuluşu tələb etməsi və bəzi hallarda orta gəlirliliyə malik olması ilə xarakterizə olunur. Bir çox ölkələrdə (məsələn, Çində) bu sahə sənaye klasterləri formatında təşkil olunaraq yüksək səmərəlilik nümayiş etdirir; burada təkcə istehsalçılar deyil, həm də xammal, nəqliyyat, bank işi və digər xidmət sahələri birgə fəaliyyət göstərir ki, bu da problemlərin operativ həllini təmin edir.

Azərbaycanın "2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində insan kapitalının inkişafı və innovasiyaların tətbiqi yüngül sənayenin də əsas inkişaf istiqamətlərindən biri kimi qeyd edilir. Lakin ölkədə yüngül sənayenin kadr təminatı sahəsində ciddi problemlər qalmaqdadır. Xaricdə təhsil almış gənclərin ölkəyə qayıtmaması, mühəndislik ixtisaslarına marağın azalması, maaşların aşağı olması və tikiş sənayesinin nüfuzunun zəifləməsi bu sahədə vəziyyəti mürəkkəbləşdirir.

Son otuz il ərzində yüngül sənaye əsas istehsal vasitələrinin köhnəlməsi, idxal mallarının artması və xarici brendlərin üstünlük qazanması fonunda geriləmə ilə üzləşib. Müasir mərhələdə bu sahənin inkişafı istehsalın rəqəmsallaşdırılması, avtomatlaşdırılması, innovativ materialların istifadəsi və qabaqcıl texnologiyaların tətbiqi ilə bağlı yüksək ixtisaslı kadrlara olan tələbi daha da artırır. Lakin

müəssisələr üçün şəffaf qaydalar, əmək haqqı sistemləri və kadr motivasiyası məsələləri hələ də həllini tam tapmayıb. Yüngül sənayenin canlanması üçün təhsil müəssisələri ilə sənaye müəssisələrinin inteqrasiyasını təmin edən yeni yanaşmalar və sistemli islahatlar zəruridir.

Yüngül sənaye klasterlərin tərkibi (sxem 3) kifayət qədər böyükdür və geniş dünyagörüşlü, qabaqcıl dünya təcrübələrini bilən, işçilər, texnoloqlar, mühəndislər, menecerlər, marketoloqlar, dizaynerlər və iqtisadçıların hazırlanmasına təcili ehtiyac var. Bu gün istehsalın idarə edilməsi, məhsullarının səmərəli təbliği üçün müasir informasiya texnologiyalarına sahib olan, yaradıcılıq təfəkkürə malik olan, öz şirkətlərini və brendlərini sənayedə aparıcı mövqelərə çatdırmaq istəyən kadrlara ehtiyacı var.



Sxem 4. Yüngül sənayedə potensial sənaye klasterlərinin strukturu
Mənbə: sxem müəllif tərəfindən tərtib edilib.

Yüngül sənaye üçün kadrların hazırlanmasında əsas problemlər və çətinliklər indiki məqamın xüsusiyyətləri ilə bağlıdır. Bu, ilk növbədə, aşağıdakılarla ifadə olunur:

- sənayedə müəssisə tərəfindən həll olunan vəzifələrin cari səviyyəsinə uyğun olan mütəxəssislərin hazırlığı səviyyəsini təmin etmək;
- müəssisələrin sifarişi ilə tələbat olan işçilərinin ixtisaslar üzrə kadr hazırlığını və təhsilini bərpa etmək;
- qabaqcıl müəssisələrlə təlim planları və məzunları üçün səlahiyyətlərin siyahısını razılaşdırmaq;
- təhsil müəssisələrini birinci mərhələdə müvafiq yeni avadanlıqla təmin etmək mümkün olmadığından tələbələrin sənaye müəssisələrində müasir texnologiya və avadanlıqları öyrənmək imkanını təmin etmək;
- təhsil müəssisələrində sənayenin əsas ixtisasları üzrə tələb olunan sayda büdcə yerlərini təmin etmək;
- məşğulluq imkanı olan və təhsillə təcrübəni birləşdirən sənaye müəssisələrində təcrübə keçmək;
- rəqabətqabiliyyətli sənaye müəssisələrində əmək haqqını təmin etmək;
- fərdi hərəkət istiqaməti üzrə elektron təhsil texnologiyalarından və təkmil təlimlərdən geniş istifadə etmək imkanı təmin etmək;
- startapların yekun ixtisas işi kimi istifadəsini və həyata keçirilməsini təmin etmək;
- gənc istedadlı dizaynerlərin və modelyerlərin yaradılmasını və dəstəklənməsini təmin etmək;
- öz brendlərimizin və markalarımızın geyim, ayaqqabı, tekstil və s. təşviqini təmin etmək kimi bir sıra tədbirlərin miqyasını genişləndirmək .

Azərbaycan yüngül sənayesinin inkişafında strateji istiqamətlərlə yanaşı, mövcud potensialın və maddi bazanın qorunmasına yönəlmiş daha dar seqmentlər – *"artım nöqtələri"* xüsusi əhəmiyyət kəsb edir. Bu nöqtələr əsasən taktiki məqsədlər daşıyır və sənayenin dayanıqlığını təmin etməyə xidmət edir. Aşağıdakı sahələr bu istiqamətdə prioritet sayılır:

1. Dövlət sifarişləri ilə dəstək: Açıq müsabiqə çərçivəsində yerli istehsalçılar üçün dövlət sifarişlərinin formalaşdırılması onların minimum gəlirliliyini təmin etməyə xidmət edir. Bu sifarişlər xüsusilə milli təhlükəsizlik və daxili bazarın təminatı baxımından əhəmiyyətlidir, çünki hazır parçalar, geyim və ayaqqabılar üzrə minimal tələbatın yerli istehsal hesabına ödənməsi vacibdir.

2. Dəri istehsalı: Dəri yüngül sənaye üçün yeganə xammal növüdür ki, bu tələbat tam olaraq yerli istehsalla qarşılanır. Bundan əlavə, dəri emalı prosesi əlavə dəyər yaradan məhsulların (məsələn, gübrələr, zülallar) istehsalına şərait yaradır.

3. Uşaq geyim və ayaqqabıları: Uşaq mallarının yerli istehsalı keyfiyyət və qiymət baxımından rəqabətqabiliyyətli sayılır. Normativ keyfiyyət tələblərinin artması bu sahədə milli məhsulların üstünlüyünü artırsa da, Çin, Pakistan və Türkiyə məhsulları ilə rəqabət güclüdür.

4. Xüsusi geyim və ayaqqabılar: Bu seqmentdə dizayn və kompleks bitirmə az əhəmiyyət kəsb etdiyindən, yerli istehsalçılar sifarişləri milli müştərilərin xüsusi tələblərinə uyğunlaşdırmaqla rəqabət üstünlüyü əldə edirlər.

5. Texniki tekstil və toxunmamış məhsullar: Hazırda texniki tekstil məhsullarına olan tələbatın yalnız 17%-i yerli istehsalla ödənir, idxalın payı isə 70%-ə yaxındır. Lakin bəzi texniki tekstil növləri üzrə (məsələn, avtomobil təhlükəsizlik kəmərləri, turist və qaldırıcı kəmərlər) yerli istehsal kifayət qədər rəqabətlidir.

Bu sahələrdə dəstəyin gücləndirilməsi yerli sənaye müəssisələrinin mövcud imkanlarını qorumaqla yanaşı, onların uzunmüddətli inkişaf potensialını artırmağa xidmət edir.

Azərbaycan yüngül sənayesinin institusional mühitinin inkişafı aşağıdakı əsas komponentləri əhatə edir:

- Kənd təsərrüfatı ilə inteqrasiya. Dəri, pambıq və yun tədarükünün yaxşılaşdırılması, xammal keyfiyyətinin artırılması məqsədilə yüngül sənaye ilə kənd təsərrüfatı arasında qarşılıqlı əlaqələrin gücləndirilməsi.
- Kimya sənayesi ilə əməkdaşlıq. Müəssisələrin tələb olunan xüsusiyyətlərə malik kimyəvi liflərlə təmin edilməsi üçün kimya sənayesi ilə əlaqələrin stimullaşdırılması.
- Texniki modernləşməyə dəstək. Yenidənqurma layihələrinə

prioritet verilməklə dövlət kreditlərinin ayrılması, texniki təchizat səviyyəsinin yüksəldilməsi.

- Vergi güzəştləri. Texniki yenilənmə, xərclərin optimallaşdırılması və rəqabətqabiliyyətli məhsul istehsalı şərtləri yerinə yetirildikdə yüngül sənaye müəssisələri üçün 5 ilədək vergi tətillərinin tətbiqi.
- Saxta məhsullara qarşı tədbirlər. Məcburi markalanma, yoxlamalar və saxta, qaçaqmal məhsulların məhv edilməsi.
- İnnovasiya və biznes əlaqələri. Son məhsul və texnologiyalar üzrə innovativ təşəbbüslərin dəstəklənməsi, müəssisələrin xərclərinin azaldılmasına xidmət edən qarşılıqlı fəaliyyətin gücləndirilməsi.
- Əlaqəli sahələrlə əməkdaşlıq. Yüngül sənaye və digər sənaye sahələri arasında qarşılıqlı əlaqənin genişləndirilməsi.
- Statistik bazanın gücləndirilməsi. Xərclər və istehsalat göstəriciləri barədə ətraflı məlumat bazasının formalaşdırılması.
- Dövlət və biznes dialoqu. Dövlət dəstəyi tədbirlərinin təsirinin qiymətləndirilməsi, proqram sənədlərinə mütəmadi düzəlişlərin edilməsi və dialoqun intensivləşdirilməsi.

Bu tədbirlər yüngül sənaye müəssisələrinin zəif və riskli cəhətlərinin qiymətləndirilməsi və inkişaf strategiyalarının formalaşdırılması baxımından mühüm rol oynayır (cədvəl 5).

GZİT təhlili yüngül sənaye müəssisələrinin fəaliyyətində mühüm rol oynayan daxili və xarici amilləri müəyyənləşdirir, həmçinin sektorun inkişafında qarşıya çıxan əsas riskləri və imkanları üzə çıxarır. Təhlil göstərir ki, yüngül sənaye müəssisələrinin fəaliyyətinə təsir edən başlıca risklər sırasında qlobal rəqabətin güclənməsi, tələbin qeyri-sabitliyi, xarici xammal təchizatçılarından asılılıq, ekoloji qanunvericiliyin sərtləşməsi və potensial ticarət müharibələri xüsusi yer tutur. Bu kimi çağırışlara qarşı effektiv inkişaf strategiyası, ilk növbədə, idxaldan asılılığın azaldılması, satış bazarlarının şaxələndirilməsi və qanunvericilik dəyişikliklərinə çevik reaksiya verilməsi kimi tədbirləri əhatə etməlidir. Bundan əlavə, ekoloji cəhətdən təmiz texnologiyalara investisiya qoyuluşu müasir dövrdə qaçılmaz zərurətə çevrilir.

Cədvəl 5.

GZİT Təhlili: Yüngül sənaye müəssisələrinin daxili və xarici mühitinin qiymətləndirilməsi

Güclü Tərəflər	Zəif Tərəflər
- Keyfiyyətli və bazar tələblərinə uyğun məhsul çeşidi - Orta bazar qiymətləri ilə satış - İşlənmiş və sabit texnoloji sistem - Güclü istehsal potensialı - Bazar təcrübəsi və reklam bacarığı	- Köhnəlmiş avadanlıq və texnika - Aşağı innovasiya fəallığı - Kredit qabiliyyətinin zəifliyi - Strateji inkişaf istiqamətinin qeyri-müəyyənliyi - Marketinq fəaliyyətinin yetərli olmaması - Xarici xammaldan asılılıq
İmkanlar	**Təhlükələr**
- Yerli xammal bazası ilə əməkdaşlıq imkanları - Regionun yüksək investisiya cəlbediciliyi - Satış bazarlarının şaxələndirilməsi - Ekoloji təmiz texnologiyalara keçid üçün dövlət təşviqi	- Qlobal rəqabətin güclənməsi - Xarici ticarət məhdudiyyətləri və ticarət müharibələri - Tələbin qeyri-stabilliyi və mövsümi dəyişkənlik - Ekoloji tələblərin sərtləşməsi - Resurs qiymətlərinin artması və inflyasiya riskləri

Mənbə: *cədvəl müəllif tərəfindən tərtib olunub.*

Təhlil eyni zamanda yüngül sənaye üçün əlverişli perspektivlər açır. Dövlət dəstəyi və islahat tədbirləri sektorun transformasiyasını sürətləndirir, rəqabət qabiliyyətinin artırılması üçün mövcud resursların səmərəli istifadəsinə şərait yaradır. İnkişaf etmiş ölkələrin təcrübəsi istehlakçı tələbindəki dəyişikliklərə sürətli reaksiya verə bilən çevik biznes modellərinin üstünlüklərini sübut edir. Regionun yüksək investisiya cəlbediciliyi, yeni bazar seqmentlərinə çıxış imkanları və yerli xammal istehsalçıları ilə əməkdaşlıq isə sektorun davamlı inkişafı üçün əlavə artım potensialı formalaşdırır.

Yüngül sənaye müəssisələrinin dayanıqlı inkişafı üçün GZİT təhlilinin nəticələrindən istifadə olunaraq risklərin minimuma endirilməsi və mövcud imkanlardan maksimum yararlanmaq strateji əhəmiyyət daşıyır. Səmərəli fəaliyyət innovativ texnologiyaların tətbiqi və işçi heyətinin ixtisasının artırılması ilə birbaşa bağlıdır. Xüsusilə toxuculuq sənayesi müəssisələrində rəqabətqabiliyyətli istehsal üçün müəssisənin maliyyə vəziyyəti, mövcud imkanlar və risklər sistemli

şəkildə qiymətləndirilməli, amillər sıralanmalı və nəticələr statistik əsaslarla təhlil edilməlidir. Bu yanaşma müəssisənin səmərəliliyini, həyat dövrünü, innovasiya fəallığını və investisiya cəlbediciliyini qiymətləndirən göstəricilər sisteminin formalaşdırılmasına əsaslanır.

Belə göstəricilər müəssisənin kompleks amillərini nəzərə alaraq fəaliyyətin səciyyəvi xüsusiyyətlərini obyektiv əks etdirməli, məlumatlı və əhəmiyyətli olmalı, asan əldə olunmalı və təkrarlanmamalıdır. Onlar biznes proseslərini qərəzsiz dəyərləndirməli, fəaliyyətin yeni tərəflərini xarakterizə etməli və səlis izah imkanları yaratmalıdır. Bütün bunlar müəssisələrin inkişafının proqnozlaşdırılması və təhlilində əsas alət kimi çıxış edi

Toxuculuq sənayesi müəssisələrin dərəqabət qabiliyyətliliyin müxtəlif qiymətləndirmə əmsalları var. Məsələn, A.Q.Litvinova altı qrup əmsal təklif edir: likvidlilik və ödəmə qabiliyyətinin qiymətləndirilməsi, əmlak vəziyyətinin qiymətləndirilməsinin göstəriciləri, maliyyə dayanıqlılığının qiymətləndirilməsi, işgüzar fəallığın qiymətləndirilməsi, rentabelliliyin qiymətləndirilməsi, qiymətli kağızlar bazarında vəziyyətin qiymətləndirilməsi.[7]

N.V.Pereborovanın fikrincə rəqabət qabiliyyətlilik vəziyyətinin qiymətləndirilməsi və proqnozlaşdırılması üçün aşağıdakı göstəricilərdən istifadə etmək lazımdır: ümumi göstəricilər, ödəmə qabiliyyəti və maliyyə dayanıqlılığı göstəriciləri, işgüzar fəallığın göstəriciləri, rentabelliliyin göstəriciləri, istehsal proseslərinin intensivləşdirilməsi göstəriciləri və təşkilatın investisiya fəallığının göstəriciləri.[8]

A.V. Şelqunov reytinq qiymətləndirilməsi üçün göstəriciləri 4 bloka bölür: təsərrüfat fəaliyyətinin mənfəətliliyinin qiymətləndirilməsi göstəriciləri, idarəetmənin səmərəliliyi göstəriciləri, işgüzar fəallığın qiymətləndirilməsi göstəriciləri,

[7] Литвинова, А.Г. Анализ ситуации в российской легкой промышленности // Вестник РУДН. Серия: Экономика. – 2014. – №2.

[8] Переборова, Н.В. Повышение качества продукции текстильной и легкой промышленности на основе внедрения информационных технологий в научные исследования / Переборова Н.В. // Вестник Санкт-Петербургского государственного университета технологии и дизайна. Серия 1. Естественные и технические науки. 2015. № 4. С. 60-66.

likvidliyin və bazar dəyanıqlılığının qiymətləndirilməsi göstəriciləri.[9]

N.Y. Nataova və M.Ş. Termyuk hesab edirlər ki, kompleks təhlil modelinin qurulması üçün 5 qrup əmsalın baxılması kifayətdir: likvidlik əmsalı, əmlak vəziyyətinin qiymətləndirilməsi göstəriciləri, maliyyə müstəqilliliyi əmsalı, işgüzar fəallıq əmsalları, rentabellik göstəriciləri.[10]

Təhlilin nəticələrinin dəqiqlik səviyyəsi rəqabət qabiliyyətlilik vəziyyətinin obyektiv qiymətləndirilməsi üçün ayrı-ayrı göstəricilər sisteminin vacibliliyini xarakterizə edir. Buna görə də eyni müəssisə üçün müxtəlif dövrlərdə ayrı-ayrı əmsalların dəqiqlik səviyyəsi də müxtəlif ola bilər. Reytinq qiymətləndirməsi ilə ifadə olunan maliyyə vəziyyətinin təhlili, şirkətin rəqabət üstünlüklərini və biznes mühitində uğurlu tərəfdaşlığın perspektivlərini müəyyən etmək üçün çox vacibdir, onun potensialını və maliyyə sabitliyini dəqiq əks etdirir. Reytinq bir neçə müəssisənin fəaliyyətinin müqayisəli qiymətləndirilməsi üsuludur. Onun əsasında müəssisələrin maliyyə vəziyyətini əks etdirən göstəricilərin müəyyən sistem üzrə ümumiləşdirilmiş xüsusiyyətləri durur.

Eyni tipli müəssisələrin reytinqinin qurulmasından işgüzar ortaqların seçilməsi zamanı istifadə etmək olar. Bu isə toxuculuq sənayesi müəssisələri üçün çox aktualdır.

Diaqnostika toxuculuq müəssisələrinin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi üçün göstəricilərin balanslaşdırılmış sisteminin köməkliyi ilə aparılır. Bu proses aşkaretmə müəssisənin faktiki keyfiyyət xassələrinin hansısa ideal norma ilə müqayisəsi əsasında icra olunur.. Bu kənarlaşmaları müəyyən etməyə, yaranan dəyişikliklərin meyllərini və böhran əlamətlərinin olmasını təyin etməyə, onların əlamətlərinin, miqyasını,

[9] Шелгунов А.В. Отраслевая производственная кооперация как вектор для дальнейшего развития рынка и поддержки отечественных производителей // Силовое и энергетическое оборудование. Автономные системы. С.83-89.

[10] Натаова, Н. Ю. Анализ мирового рынка товаров отрасли легкой промышленности: современное состояние / Н. Ю. Натаова, М. Ш. Темрюк // Наука XXI века: проблемы, перспективы, информационное обеспечение: Сборник научных трудов по материалам XV региональной научной конференции ", 2017. – С. 158-162.

normadan kanarlaşmalarını aradan qaldırmağa imkan verir. Normadan kənarlaşmanı təyin etmək üçün keyfiyyət və kəmiyyət parametrləri qrupunu və ya məcmusunu analoji faktiki parametrlər ilə müqayisə bazasını qarşılaşdırmaq lazımır.

Qeyd etmək lazımdır ki, yüngül sənayesi müəssisələrinin əsas xammal bazası kənd təsərrüfatı istehsalı ilə məşğul olan müəssisələr olduğundan istehsal-satış fəaliyyətində bu sahənin kifayət səviyyədə riskli olmasından asılı olaraq böhranlı vəziyyətə düşmə ehtimalı yaranır. Deməli, rəqabətqabiliyyətli məhsul istehsalı üzrə risklərin idarə edilməsi zərurəti yaranır. Ona görə yüngül sənaye müəssisələri marketinq strategiyası hazırlamaqla daha səmərəli idarəetmə sistemi və onun reallaşdırılması mexanizmini formalaşdırmağa çalışır. Bu sahədə həyata keçiriləcək tədbirlər aşağıdakı vəzifələri əhatə edir:

- Məhsul seqmentlərinin müəyyənləşdirilməsi və istehsal istiqamətinin seçilməsi;
- Müəssisənin istehsal və xidmətlərinin xarakteristikalarının analiz edilməsi;
- Hədəf bazar və müştəri tələblərinin və onların formalaşdırdığı bazar seqmentlərinin araşdırılması;
- Daxili və xarici satış bazarlarının şərtlərinin incələnməsi;
- Rəqabət mühitində üstünlük qazanmaq üçün rəqiblərin və onların fəaliyyətlərinin öncədən müəyyən olunması və öyrənilməsi;
- Tələb və bazar proqnozunun hazırlanması və təhlili;
- İstehsal üçün olan xərc və digər xərclərin, məsələn, saxlama, qablaşdırma və satışa qoyulan xərc vəsaitlərinin proqnozlaşdırılması;
- Rəqabət mühitinin və bazar meyllərinın qiymətləndirilməsi;
- Qiymət siyasətinin və qiymətlərin təyin olunmasının planlaşdırılması və idarə olunması.

Qeyd edilənlərlər yüngül sənayesi müəssisələrinin idarəedilməsində marketinqin idarə edilməsinin mövcud mühitinin perspektiv idarəetmə mühiti ilə uzlaşdırılmsını başlıca məqsədə çevirir. Konkret olaraq marketinq müəssisələrin idarəetmə konsepsiyası rolunda çıxış etməklə mühüm idarəetmə funksiyaları - məqsədlərin müəyyənləşdirilməsi; məqsədli bazarların seşilməsi,

müəssisələrin fəaliyyətinə nəzarət və s. yerinə yetirir.

Yüngül sənaye qlobal sənaye kompleksinin aparıcı sahələrindən biridir. Yüngül sənaye dünyanın ümumi məhsulunun 6%-ni təşkil edir. Son on ildə yüngül sənayenin ticarət dövriyyəsi iki dəfədən çox artmışdır. Qeyd etmək lazımdır ki, eyni vaxtda Avropa İttifaqında yüngül sənaye məhsullarının istehlakı 90,5%, Yaponiyada isə təxminən 3 dəfə artmışdır. "Euromonitor"-un məlumatına görə, 2019-cu ildə qlobal yüngül sənaye bazarı 3 trilyon dollar təşkil edib[11]. Ümumiyyətlə, yüngül sənaye əhalinin artımı və onun alıcılıq qabiliyyətinin artması ilə birbaşa əlaqəli olan daimi iqtisadi artımla xarakterizə olunur[12]. Hazırda qlobal yüngül sənaye sahəsində lider mövqeləri bu sahənin iqtisadi inkişafda əsas amil kimi qəbul edildiyi ölkələrə məxsusdur. Bu cür ölkələrə Çin, Cənubi Amerika ölkələrinin bir qismi, Cənub-Şərqi və Mərkəzi Asiyanın bir sıra dövlətləri daxildir. Uzun illərdir ki, onlar dünya bazarında möhkəm mövqelərini qoruyub saxlayırlar. Lakin yüngül sənaye istehsal güclərinin coğrafi yayılışı əhəmiyyətli dəyişikliklərə məruz qalır. Son onilliklərdə dünya səhnəsində Asiya, Latın Amerikası və Şərqi Avropa ölkələrində yeni, sürətlə inkişaf edən istehsal mərkəzləri meydana çıxmışdır. Maraqlıdır ki, istehsalın ən sürətli artımı nisbətən aşağı əhali başına düşən gəlir səviyyəsinə malik ölkələrdə müşahidə olunur. Bu, yüngül sənayenin iqtisadi inkişaf və yeni iş yerlərinin yaradılması aləti kimi böyük potensialını aydın şəkildə göstərir. Eyni zamanda, inkişaf etmiş ölkələr hazır tekstil məhsullarının idxalına daha çox etibar edirlər, xammal və yarımfabrikatların ixracına üstünlük verirlər. Orta gəlir səviyyəsinə malik ölkələr isə daxili tələbatın bir hissəsini ödəyir və artıq məhsulları qonşu regionlara ixrac edirlər[13].

İnkişaf etməkdə olan ölkələrdə yüngül sənayenin sürətli inkişafında dövlət dəstəyinin mühüm rolu vardır. Bu, dünya miqyasında istehsal

---

[11] https://www.euromonitor.com Əliyev,

[12] Əliyev T.N. Klasterlər: beynalxalq təcrübə və innovativ inkişaf. Monoqrafiya,Bakı,Elm və Bilik,2019.-536 s.

[13] Кудрявцева, Т.Ю., Схведиани, А.Е. Эконометрический анализ региональной промышленной специализации (на примере обрабатывающей промышленности России) // Экономический анализ: теория и практика, 2020, вып.. 19, № 9, стр. 1765–179.

güclərinin yenidən bölüşdürülməsinə, əmək xərclərinin aşağı olduğu ölkələrə yönəlməsinə səbəb olur. İnkişaf etməkdə olan ölkələr dünya yüngül sənaye məhsullarının istehsalının əhəmiyyətli hissəsini, əsasən texnoloji cəhətdən daha az mürəkkəb seqmentlərdə təmin edirlər.

2018-ci ildə yüngül sənayesinə investisiya axınının təhlili göstərir ki, İndoneziya investisiya həcminə görə dünya lideri olmuş, ümumi məhsul istehsalı həcminə görə digər ölkələri xeyli geridə qoymuşdur. İnvestisiyalar 2019-cu ildə istehsalın artımına (təxminən 20 milyard dollar) əhəmiyyətli təsir göstərmişdir[14]. Lakin qeyd etmək lazımdır ki, bir sıra ölkələrdə investisiyalar gözlənilən istehsal artımına səbəb olmamış, əksinə, sonrakı illərdə ümumi məhsul istehsalında azalma müşahidə edilmişdir. Bu, yalnız investisiyaların cəlb edilməsinin deyil, həm də onların səmərəli istifadəsinin və əlverişli investisiya mühiti yaradılmasının vacibliyini vurğulayır.

Azərbaycanın vəziyyətinə nəzər salaq. Ölkənin siyasi-iqtisadi inkişafının xüsusiyyətlərini nəzərə alaraq, milli iqtisadiyyatın yüksəlişinin əsas amili istehsal sektorunun, o cümlədən əhalinin istehlak mallarının istehsalını təmin edən yüngül sənayenin inkişafıdır. Azərbaycan yüngül sənayesi əhali üçün hazır məhsulların (tekstil, geyim, ayaqqabı, dəri, xəz və yun məmulatları) istehsalına ixtisaslaşıb. Lakin Azərbaycanın ümumi sənaye istehsalında yüngül sənayenin payı cəmi 0,5%-dir[15]. Bunun səbəbləri arasında 1990-cı illərdəki islahatlardan sonra iqtisadi əlaqələrin pozulması, istehsalın dağılması və mövcud təchizat zəncirlərinin pozulması yer alır. Xammalın xarici təchizatçılardan asılılığı yerli məhsulların qiymətinin artmasına səbəb olur. Sərhədlərin açılması nəticəsində Çin, Hindistan və digər ölkələrdən ucuz idxal mallarının kütləvi axını müşahidə edilmişdir. Yerli yüngül sənaye müəssisələrinin məhsullarının zəif rəqabət qabiliyyəti xərcləri azaldan və istehlakçıların tələblərinə daha yaxşı cavab verən istehsal metodlarının işlənib hazırlanması zərurətini qarşıya qoyur.

---

[14] Парамонова Т.Н., Рамазанов И.А., Урясьева Т.И. Рынок легкой и текстильной промышленности в период импортозамещения // Торговоэкономический журнал. - 2016. - №3. - С. 53-66.

[15] https://www.unido.org/sites/default/files/files/2021-11/IDR%202022%20-%20EBOOK.pdf

NƏTİCƏ

Dissertasiya işində yüngül sənaye müəssisələrinin uzunmüddətli inkişafının tənzimlənməsi istiqamətləri üzrə aparılan tədqiqat nəticələrini ümumiləşdirərək aşağıdakılar qeyd olunmuşdur:

- Qloballaşma, artan rəqabət və yüngül sənaye sahəsində biznesin transmilliləşməsi ənənəvi idarəetmə konsepsiyalarının ciddi şəkildə yenidən nəzərdən keçirilməsini və təşkilati strukturların yeni reallıqlara uyğunlaşdırılmasını tələb edir. Müasir bazar mexanizmlərinin təhlili sənaye müəssisələrinin uğurlu fəaliyyətini və davamlı inkişafını müəyyən edən əsas problemləri aşkara çıxarır və innovativ həllərin axtarılmasını gündəmə gətirir.
- Qloballaşma meyillərinin və transmilliləşmə şəraitində rəqabətin güclənməsinin təhlili yüngül sənaye müəssisələrinin idarə edilməsində spesifik problemləri üzə çıxarır. Bazar mexanizmlərin öyrənilməsi həmin problemləri strukturlaşdırmağa və idarəetmə konsepsiyalarına keçidini zəruriliyini müəyyən etməyə imkan verir. Xüsusilə, dinamik təşkilati-idarəetmə klasterləri ənənəvi modellərlə müqayisədə iştirakçıların daha yüksək səviyyədə müstəqilliyini nümayiş etdirir və regional idarəetmə orqanlarının əməliyyat fəaliyyətinə təsirinin minimuma endirilməsinə kömək edir.Dinamik təşkilati-idarəetmə klasterlərinin əmələ gəlməsinin əsas üsulu iri mal (iş, xidmət) sifarişçisi tərəfindən istər konkret xammal, istehsalat və ya satış bazasına ərazi bağlılığı olan, istərsə də belə bağlılığı olmayan müstəqil şirkətlərlə qısa və ya ortamüddətli müqavilələrin bağlanmasıdır.
- Yüngül sənayenin uzunmüddətli inkişafında modernləşdirici idarəetmə prosesləri və sistemləri spesifik xarakterə malikdirlər.Onlar ölkənin və sosial-siyasi inkişafının milli xüsusiyyətlərinin təsiri altında inkişaf edirlər, məhz buna görə də xüsusi, əvvəlcədən optimal olan milli modernləşdirmə sistemi mövcud deyil, əksinə, bu cür modernləşdirici sistemlərin formalaşması və fəaliyyətinə öz güclü və zəif cəhətləri olan çoxsaylı yanaşmalar var. Bundan başqa, dinamik milli modernləşdirici sistemlər, daima yeni böhran təhdidlərinin və müvafiq olaraq yeni idarəetmə ehtiyaclarının meydana çıxmasına uyğunlaşır və onlara uyğun formalaşır;

- Yüngül sənayedə milli modernləşdirici sistem konsepsiyası siyasət və planlaşdırmanın işlənib hazırlanması zamanı istifadə edilən bilən idarəetmə aləti kimi nəzərdən keçirilir. Lakin nəzərə almaq lazımdır ki, nəzəri milli modernləşdirici sistem modelləri milli modernləşdirici prosesin təşkili üçün hazır "sxem" kimi xidmət edə bilməzlər. Modernləşdirici siyasətin ifadə olunması və həyata keçirilməsi ilə bağlı əlaqələndirmə tədbirlərində çatışmazlıqlar mövcuddur. Bu xüsusilə milli modernləşdirici sistemin dövlət və xüsusi sektorları arasında qarşılıqlı fəaliyyət problemlərinə aiddir;
- İdarəetmənin işçi heyətinin ixtisaslı mütəxəssislərinin çatışmazlığı yüngül sənayenin əsas problemlərindən biridir. İnzibati-amirlik üsullarından bazar mexanizmlərinə keçidin zəruriliyi kadr təminatı və peşəkar mütəxəssislərin yenidən hazırlıq üzrə səmərəli strategiya və metodların işlənib hazırlanmasını və tətbiqini tələb edir. Eyni zamanda müasir şəraitdə yüngül sənayedə müəssisənin optimal inkişafı üçün rəhbər işçilərin əksəriyyətində təşəbbüskarlığı və menecmentə dair lazımi bilikləri olmalıdır. Bu problemi, fikrimizcə, yeni kadrların hazırlanması və köhnə kadrların yenidən hazırlanması yolu ilə həll etmək olar;
- İstehsal prosesinin idarə edilməsi çox vaxt aparan bir işdir. Bu işdə əsas mexanizmlər - istehsal prosesinin planlaşdırılması, uçotu və optimal nəzarətdir. İnformasiya texnologiyalarının ən son nailiyyətlərinə əsaslanan inteqrasiya olunmuş idarəetmə sistemi, əməkdaşların və avadanlıqların səmərəli qarşılıqlı əlaqəsini təmin edir, əsas idarəetmə proseslərini avtomatlaşdırır. Bunun sayəsində işin optimallaşdırılması və məhsuldarlığın artırılması əldə edilir. Qarşıya qoyulan vəzifələrin avtomatlaşdırılmış həlli marketinqi bacarıqla həyata keçirməyə, planlaşdırmağa, xərcləri nəzərə almağa, istehsala texniki hazırlıq aparmağa imkan verir;
- Müasir şəraitdə yüngül sənayenin yeniləşdirilməsi şübhəsiz ki, sahənin müəssisələrində aparılan kadr siyasətindən də asılıdır. Azərbaycanın yüngül sənaye müəssisələrinin əksəriyyətində kadrların idarə edilməsinə köhnə yanaşmalar hələ də üstünlük təşkil edir və sənayenin tanınmış xarici sənaye müəssisələrində çoxdan tətbiq olunan innovativ texnologiyalar və üsullar tətbiq edilmir;
- Qeyd edək ki, rəqabətdə üstünlük qazanmaq uğurun əsas amili

hesab olunur və bu üstünlüklər şirkətin əlində olan və rəqabət mübarizəsini dəstəkləyən həm daşınan (maddi) resurslar, həm də qeyri-dusta resurslar şəklində formalaşa bilər. Firmanın bazarda uğur qazanması, rəqiblərlə mübarizədə üstünlük əldə etməyə, müştəri bazasını cəlb edib saxlamağa və brendə güclü bağlılıq yaratmağa imkan verən unikal qabiliyyətlərə bağlıdır. Rəqabət üstünlüyünün qorunması üçün istifadə edilən üsullar arasında antiinhisar tədbirləri, patentlər, lisenziyalar, nü-hau və onun sahiblərinin şirkətə cəlb olunması, həmçinin xammal və digər əsas materiallara sərbəst çıxış imkanları mövcuddur.

- Hesab edirik ki, Azərbaycan Respublikasında yüngül sənaye sahəsinin maliyyələşdirilməsi strategiyanın reallaşdırılması üçün zəruri olan vəsaitlərinin qarışıq investisiya yatırımları sisteminin tətbiqi ilə cəlb edilməsi daha məqsədəuyğun olardı:

- Qeyri büdcə vəsaitləri, respublikada fəaliyyət göstərən müəssisələrin özlərinin vəsaitləri, eyni zamanda ölkə və xarici investorların sahəyə vəsait yatırmalarına təşviq edilməsi, həmçinin kommersiya kreditlərinin, strateji və portfel investisiya vəsitlərinin yatırılması;
- Sahənin inkişaf etdirilməsi, yeni məhsul növləri və çeşidlərin hazırlanması və milli brendrlərin yaranması istiqamətində layihələrin büdcə və digər mənbələrdən maliyyələşdirilməsi.

- Dövlət tərəfindən yüngül sənayenin inkişafı üçün şəraitin yaradılmasına yönəlmiş prioritet tədbirlər aşağıdakılardan ibarət ola bilər:

- Azərbaycanın yüngül sənayesinin sürətli inkişafı üçün bir sıra tədbirlər təklif olunur: ölkədə istehsal olunmayan müasir texnoloji avadanlıqlar üçün idxal rüsumlarının azaldılması; xammal və materialların idxalının vergiyə cəlbolunmasının optimallaşdırılması; innovativ layihələrin dövlət proqramlarına inteqrasiyası;
- yüngül sənaye mallarının qaçaqmalçılığına qarşı mübarizə və humanitar yardımların paylanması sisteminin təkmilləşdirilməsi; müəssisələrin zəruri xammal təminatının gücləndirilməsi. Bu tədbirlər investisiyalar üçün əlverişli şərait yaratmaq, sənayenin rəqabət qabiliyyətini artırmaq, onun inkişafını və modernizasiyasını stimullaşdırmaq məqsədini daşıyır.

- Tədqiqatımızı nəticəsində belə bəlli olur ki, Azərbaycanın yüngül sənayesinin dinamik inkişafı üçün xammal və materialların idxalına görə rüsumların əhəmiyyətli dərəcədə optimallaşdırılması, istehsalçılar üçün lazımi resursların əlçatanlığını təmin etmək tələb olunur. Ölkədə mövcud olmayan yüksək texnologiyalı avadanlıqlar üçün gömrük rüsumlarının əhəmiyyətli dərəcədə azaldılması modernləşmə prosesini sürətləndirmək və istehsalın səmərəliliyini artırmaq üçün zəruridir. Belə idxalın fəal dövlət dəstəyi yüngül sənayenin inkişafının sürətləndirilməsi, beynəlxalq bazarda rəqabət qabiliyyətinin artırılması və yeni iş yerlərinin yaradılması üçün əsas prioritet ola bilər.
- Bununnla yanaşı, yüngül sənayedə yeni texnologiyaların tətbiqinə yönəlmiş ən mühüm işlərin mövcud və inkişaf etdirilən dövlət məqsədli proqramlarına daxil edilməsi, yüngül sənaye mallarının Azərbaycan ərazisinə qanunsuz idxalının qarşısının alınması və humanitar yardımın qəbulu və istifadəsi mexanizminin təkmilləşdirilməsi, yüngül sənayenin xammalla təminatının yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsi üzrə işlərin gücləndirilməsi kimi tədbirlər də Azərbaycanda dövlət tərəfindən yüngül sənayenin inkişafı üçün şəraitin yaradılmasına yönəlmiş prioritet tədbirlərdən olmalıdır.
- Dissertasiyada tədqiq olunan aspektləri nəzərə alaraq işimizdə "istiistehsal-nəqliyyat-anbar "probleminin praktiki həll modeli təklif edilir.
- Tədqiqat göstərdi ki, respublikada yüngül sənayedə institusional mühitin inkişafı, fikrimizcə, aşağıdakı bir sıra əsas komponentləri əhatə edir. Onlardan biri yerli dəri və ayaqqabı sənayesi üçün dəri, müvafiq keyfiyyətli pambıq və yun tədarükü, habelə xammalın keyfiyyətinin yüksəldilməsi üzrə işlərin aparılması baxımından yüngül sənaye ilə kənd təsərrüfatı arasında qarşılıqlı əlaqənin stimullaşdırılmasıdır. İstehsalçıları tələb olunan xüsusiyyətlərə malik lazımi miqdarda kimyəvi liflərlə təmin etmək üçün yüngül sənaye ilə kimya sənayesi arasında qarşılıqlı əlaqənin stimullaşdırılması, həmçinin müəssisələrin texniki baxımdan yenidənqurulması layihələri prioritet olmaqla yüngül sənaye müəssisələri üçün dövlət kreditlərinin verilməsi tədbirləri də respublikamızda yüngül sənayedə institusional

mühitin inkişafı üçün təkan verəcək addımlardandır. Yüngül sənayenin inkişafının tənzimlənməsi şərtlərdən biri yerinə yetirildikdə yüngül sənaye müəssisələri üçün beş il müddətinə "vergi tətilləri" ola bilər. Belə ki, müəssisənin texniki cəhətdən yenidən təchiz edilməsi, istehsal xərclərinin qabaqcıl dünya təcrübəsi səviyyəsinə endirilməsinin təmin edilməsi və ya beynəlxalq səviyyədə onların rəqabət qabiliyyətini təmin edən xüsusiyyətlərə malik məhsul istehsalın qurulması, yüngül sənaye məhsullarının məcburi markalanması və onların mövcudluğunun yoxlanılması, saxta və ya qaçaqmalçılıq yolu ilə gətirilən məhsulların, gömrük və dicərə dövlət qurumları tərəfindən ifşa edildikdən sonra məcburi məhv edilməsi də bu komponentlərə aid edilə bilər.

- Prioritetli vəzifələr yüngül sənaye məhsullarının istehsalı üzrə biznes və inkişaf etdiricilərinin qarşılıqlı əlaqəsinin optimallaşdırılması, tranzaksiya xərclərinin azaldılması və həm sənaye daxilində, həm də əlaqəli istehsalat sahələri, o cümlədən maşınqayırma və kimya sənayesi ilə əməkdaşlığın stimullaşdırılmasından ibarətdir. Bunun üçün müxtəlif istehsal seqmentlərində xərclərin təhlilini əhatə edən ətraflı statistik bazanın toplanması, dünya təcrübəsinin öyrənilməsi və innovativ texnologiyaların tətbiqi zəruridir. Müəssisələr, elmi mərkəzlər və dövlət orqanları arasında dialoqun fəallaşdırılması, dövlət dəstəyi tədbirlərinin səmərəliliyinin müntəzəm qiymətləndirilməsi və proqram sənədlərinə vaxtında düzəliş edilməsi əsas məqamlardandır. Bu, dəstək tədbirlər çeşidini genişləndirməyə, yüngül sənayenin inkişafına investisiyaların səmərəliliyini artırmağa və yeni iş yerləri yaradaraq ölkə yyatını möhkəmləndirməklə sənayenin davamlı, uzunmüddətli inkişafını təmin etməyə imkan verə bilər.

- Azərbaycanda yüngül sənaye sektorunda risklərin idarə edilməsi sisteminin təkmilləşdirilməsi üçün bir sıra tədbirlərin icrası labüd hesab edilir:

- Şirkətlərə risklər haqqında aktual məlumat almağa, habelə onların minimuma endirilməsi üçün tövsiyələr almağa imkan verəcək infrastrukturun inkişafı və regional risklərin idarə edilməsi mərkəzlərinin yaradılması bu tədbirlərdən birincisi ola bilər.

- Məhsulun keyfiyyətini yaxşılaşdıracaq və istehlakçılar üçün

sağlamlıq risklərini azaldacaq məhsulun təhlükəsizliyi sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi, standartların və tələblərin sərtləşdirilməsi tədbirləri də yüngül sənaye sektorunda risklərin idarə edilməsi sisteminin təkmilləşdirilməsinə tövhə verə bilər. Məhsulların istehsalında və satışında şəffaflığın təmin edilməsi də, standartlara və normalara riayət edilməməsi ilə bağlı riskləri azaltmağa kömək edəcək.

- İstehsalın və satışın bütün mərhələlərində məhsulun keyfiyyətinə nəzarət sistemlərinin qurulması, risklərin idarə edilməsi üzrə kadr hazırlığı və ixtisasartırma tədbirləri mümkün problemlərin qarşısını almağa, səhvləri və ixtisas çatışmazlığını minimuma endirməyə imkan verir. Sənaye spesifikasına uyğun risk idarəetmə standartlarının hazırlanması, müstəqil ekspertlərin cəlb edilməsi və yeni texnologiyalarla yanaşı innovativ risk idarəetmə metodlarının tətbiqi müəssisələrin dəyişən bazar və istehsal çağırışlarına cavab verməsini təmin edir. Eyni zamanda, məhsulun təhlükəsizliyi və keyfiyyəti ilə bağlı ictimai məlumatlılığın artırılması mühüm əhəmiyyət kəsb edir.
- Beləliklə, dissertasiyada irəli sürülən təkliflərin reallaşdırılması yüngül sənayenin inkişafına, məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsinə və bir sıra sosial-iqtisadi problemlərin həllinə töhfə verə bilər. Tədqiqat nəticələrinə görə, yüngül sənayenin ümumi sənaye istehsalında payı 4%-ə çatdırıla, büdcə daxilolmaları 2 dəfə artırıla və məhsul istehsalı ildə 12–15% yüksəldilərək yerli bazarın keyfiyyətli və əlçatan mallarla təminatı gücləndirilə bilər. Bu, həm də dövlət orqanları və müəssisələrin geyim və ayaqqabı tələbatının yerli istehsal hesabına ödənilməsinə şərait yaradacaqdır.

Dissertasiya işinin əsas məzmunu aşağıdakı elmi əsərlərdə əks olunmuşdur:

1. Мамедова Х.Ф. Перспективы развития производства изделий текстильной промышленности // – Москва: Экономика и предпринимательство, 2016, №12 (ч2) – стр. 1198- 1200.

2. Məmmədova X.F. Respublikamızda yungül sənaye müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi yolları // – Bakı:

“Tikintinin iqtisadiyyatı və menecment” jurnalı, 2019, №3. – s.131-138.

3. Məmmədova X.F. Yüngül sənayedə istehsalın rəqabət qabiliyyətinin nəzəri metodoloji əsasları // – Gəncə: “İnnovasiyalı iqtisadiyyat və menecment” jurnalı, 2020, №1 (3). – s. 110-116.

4. Məmmədova X.F., Məmmədov F.Ə. Respublikamızın toxuculuq sənaye müəssisələrində kadr təminatının mövcud vəziyyəti və inkişaf perspektivləri // – Mingəçevir: “Regional inkişafin təmin olunmasinda innovativ tendensiyalar: realliqlar və müasir çağırışlar mövzusunda respublika elmi konfransının materialları, 2020, №1. – s. 199-201.

5. Мамедова Х.Ф. Современные тренды развития легкой промышленности Азербайджана // – Курск: Конкурентоспособность в глобальном мире: Экономика наука технология, 2022, №6 (3). – стр. 166-168.

6. Мамедова Х.Ф., Мамедов Ф.А., Ташпулатов С.Ш. Проблемы повышения эффективности использования материальных и трудовых ресурсов швейной промышленности Азербайджана // – Иваново: Технология текстильной промышленности, 2022, №3 (399). – стр. 39-42.

7. Мамедова Х.Ф. Алгоритм технологической последовательности изготовления одежды для учащихся лицея // – Москва: журнала “Управленческий учет”, 2022, № 7. – стр. 111-117.

8. Məmmədova X.F. Azərbaycan Respublikasında yüngül və toxuculuq sənayesi müəssisələrinin müasir vəziyyəti, ona təsir edən amillər // – Sumqayıt: Azərbaycan və Türkiyənin iqtisadi əməkdaşlığının strateji istiqamətləri. Sumqayıt Dövlət Universitetində keçirilən beynəlxalq konfransın materialları, 2022, №5. – s. 170-172.

9. Мамедова Х.Ф., Мамедов Ф.А. Основные направления совершенствования управления конкурентоспособностью изделия в легкой промышленности // – г.Намаган: Технологии инновации швейном трикотажном производстве межд. кон., Наманганский Инженерно –технологический институт, 2022, 7-8 октября. – стр. 14-18.

10. Mammadova Kh.F. Rakhmatullaeva Umida, Mirfayazova

Nilufar, Djurayva Shakhnoza, Tashpulatov Salikh, Kholiqov Kurbanali. Analysis Of Symbolic Meanings Used In National Clothes Of Bukhara, Samarkand And Nurata. // – PTLICISIWS-2022 – s. 508-513.

11. Mammadova Kh.F., X.F.Rasulova Mastura, Tashpulatov Salikh, Mamasolieva Shokhista, Kenjaeva Vasila, KholiqovKurbanali, ZebunisoMamahanova. Investigation of the Strength of Thread Connections of Parts of Workwear Made of Fabric of New Structures // – PTLICISIWS-2022, – p. 910-918.

12. Məmmədova X.F., Məmmədov F.Ə. Ekstremal şətaitdə stabil çeşidli geyimlərin istehsalının təşkili // – Bakı: Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin 2 beynəaxalq konfransının materrialları, Cilt 24 İSCRRPCS, 2022, № 2, – s. 243-244.

13. Мамедова Х.Ф. Современные аспекты развития легкой промышленности Азербайджана // – Алма-Ата: Материалы меж. Научно-практической конф. «Инновационное развитие пищевой, легкой промышленности и индустрии гостеприимства» посвященной 65-летию Алма-атинского технологического университета, 2022, 21 октября. – стр. 298-299.

14. Мамедова Х.Ф., Мамедов Ф.А., Ташпулатов С.Ш., Алиева Ш.Я., Абдиева Г.З., Мамедова Г.Р. Стратегия рыночного управления и переходном периоде // – Иваново: Технология текстильной промышленности, 2023, № 2(404). – стр. 18-23.

15. Мамедова Х.Ф. Факторы, влияющие на конкурентоспособность продукции легкой и текстильной промышленности // – Москва: Управленческие технологии и приоритеты социально экономического развития регионов. Сборник Научных трудов по итогам проведения круглого стола, 2023, – стр. 95-101.

16. Məmmədova X.F., Məmmədov F.Ə. Yüngül və toxuculuq sənayesi mərsullarının rəqabətqabiliyyətinə təsir edən amillər // – Gəncə: II Beynəlxalq mühəndislik elmləri konfransı, 2023, II. – s. 372-383.

17. Məmmədova X.F. Toxuculuq sənaye müəssisələrinin uzunmüddətli inkişaf məsələləri // – Gəncə: "Müasir təbiət və iqtisad elmlərinin aktual problemləri", 2023, VI hissə. – s. 26-28.

18. Мамедова Х.Ф., Мамедов Ф.А., Ташпулатов С.Ш. Структурные преобразования в системе приоритетов региональной политики Азербайджана // – Иваново: Технология текстильной промышленности, 2023, № 5 (407). – стр. 30-37.

19. Мамедова Х.Ф., Мамедов Ф.А., Ташпулатов С.Ш., Гасанов Б.М., Мехтиев Ф.С. Влияние инновационного маркетинга на эффективность производства // – Иваново: Технология текстильной промышленности, 2023. № 6 (408). – стр. 21-27.

20. Мамедова Х.Ф., Конкурентоспособность предприятий как ключевой фактор долгосрочного развития легкой промышленности в Азербайджане // – Управленческий учет, 2024, № 08. – стр. 273-282.

21. Мамедова Х.Ф., Мамедов Ф.А., Ташпулатов С.Ш., Юзбашыева Г.З., Салимли С.Х., Зейналова М.С. Развитие конкурентоспособности продукции легкой промышленности Азербайджана // – Иваново: Технология текстильной промышленности, 2024, №1 (409). – стр. 24-32.

22. Мамедова Х.Ф., Мамедов Ф.А. Керимова М.Г. Ташпулатов С.Ш. Мамедзаде Э.Э. Современное состояние легкой промышленности Азербайджана // – Технология текстильной промышленности, 2024, №3 (411). – стр. 50-58.

23. Мамедова Х.Ф., Аббасова Ш.Р., Мамедов Ф.А., Ташпулатов Ш.С., Ташпулатов С.Ш. Ключевые характеристики логистики и управления цепочками поставок в секторе легкой промышленности. // – Иваново: Технология текстильной промышленности, 2024, №4 (412). – стр. 42-52.

24. Мамедова Х.Ф. Развитие рынка потребительских товаров в новых условиях // – Москва: Международный Косыгинский форум провлемы инженерных наук: формирование технологического суверенитета, 2024, IV. – стр. 226-235.



Dissertasiyanın müdafiəsi 29 oktyabr 2025-ci il tarixdə saat 14^{00}-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəh., Nəcəf Nərimanov küç., 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Kooperasiya Universitetinin (www.aku.edu.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 27 sentyabr 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 12.09.2025

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 84756 işarə

Tiraj: 100